## ƏLİ HƏSƏNOV: PREZİDENT İLHAM ƏLİYEV ŞAİR MİKAYIL MÜŞFİQLƏ BAĞLI MƏSƏLƏNİ ŞƏXSİ NƏZARƏTİNƏ GÖTÜRÜB



Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib. Cənab Prezident məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib...

Bax səh. 3

## AZƏRBAYCANIN BÜTÜN BÖLGƏLƏRİNDƏ YÜKSƏK SƏVİYYƏLİ YENİ YOLLAR SALINIR



Azərbaycanda geniş vüsət alan və ölkəmizin müasir simasını səciyyələndirən yüksək səviyyəli infrastruktur quruculuğu prosesini həmçinin bütün respublika üzrə avtomobil yollarının, yolayrıcıların, körpülərin inşasının və yenidən qurulmasının timsalında aydın şəkildə izləmək mümkündür. 2004-cü ildən bəri respublikamızda 15 min kilometr yol çəkilib, 443 körpü tikilib. Ölkəmizdə yeni yolların çəkilməsi və mövcud yolların yenidən qurulması ilə bağlı işlərin coğrafiyası getdikcə...

Bax səh. 8



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 01 noyabr 2018-ci il, cümə axşamı / № 207 (5334). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı sosial məsələlərin həllini uğurla təmin edir



*__Prezident İlham Əliyev:__ Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Əbdüləziz Buteflikaya təbrik məktubu göndərib.

* ❖ *

Prezident İlham Əliyev Beyləqan rayonunun Kəbirli-Eyvazalılar-Birinci Aşıqlı-Əlinəzərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* ❖ *

Prezident İlham Əliyev Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* ❖ *

Prezident İlham Əliyev Gəncə Dövlət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

* ❖ *

Prezident İlham Əliyev Gəncə Dövlət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## *Nikolas Löbel:* Almaniya Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır

Oktyabrın 31-də ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının deputatı, hakim Xristian-Demokrat/Xristian-sosial İttifaqı fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbel Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin və Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası...

Bax səh. 7

## Böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib



Oktyabrın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyində böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib. Tədbir çərçivəsində Mir Cəlal Paşayevin...

Bax səh. 3



## AQRAR SAHƏNİN UĞURLARI AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFININ NƏTİCƏSİDİR

...İnsanların zəruri ərzaq ehtiyaclarının ödənilməsi cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günədək əsas çağırışlardan biri olmaqda davam edir. Bu səbəbdən hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet vəzifə kimi çıxış edir. 2050-ci ilədək...

Bax səh. 4

## BAKIDA "İNFORMAL VƏ QEYRİ-FORMAL ÜSULLARLA ƏLDƏ EDİLMİŞ SƏRİŞTƏLƏRİN TANINMASI" MÖVZUSUNDA MÜZAKİRƏLƏR APARILIB

Oktyabrın 31-də Bakıda Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının birgə reallaşdırdığı "Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi" qrant proqramı çərçivəsində "İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, müvafiq qurumların nümayəndələrinin, peşə təhsili müəssisələri əməkdaşlarının, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi təmsilçilərinin, ekspertlərin iştirak etdikləri tədbirdə təhsil naziri Ceyhun Bayramov ölkəmizdə peşə təhsilinin inkişafına xüsusi önəm verildiyini bildirib və bu sahədə həyata keçirilən tədbirlərdən danışıb. Nazir peşə təhsilinin ölkənin sosial-iqtisadi inkişafına təkan verən, iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını...

Bax səh. 6




## DÜNYA BANKININ "DOİNG BUSİNESS 2019" HESABATINDA AZƏRBAYCAN DÜNYANIN ƏN ÇOX İSLAHAT APARAN ÖLKƏSİ ELAN OLUNUB

Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. AZƏRTAC xəbər verir ki...

Bax səh. 5

## Bakıda TürkPA-nın hüquqi məsələlər və beynəlxalq əlaqələr komissiyasının altıncı iclası keçirilib

Oktyabrın 31-də Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) hüquqi məsələləri və beynəlxalq əlaqələr komissiyasının altıncı iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin deputatı, komissiyanın sədri İsmət Uçmanın sədrlik etdiyi iclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan parlament nümayəndələri və ekspertlər iştirak ediblər. İsmət Uçma əvvəlcə...

Bax səh. 4

### Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Son iclas" filminin Londonda təqdimatı olub

Böyük Britaniyanın və dünyanın ən nüfuzlu mədəniyyət mərkəzlərindən biri olan Britaniya Kino və Televiziya Sənətləri...



Bax səh. 3

### *Azad Kərimli:* Ölkəmizdə xərçəng xəstəliklərinin müalicəsi üzrə ciddi tədbirlər həyata keçirilib

...Təəssüf ki, bütün dünyada olduğu kimi Azərbaycanda da onkoloji xəstəliklərə tutulmuş insanların sayı artmaqdadır. Hazırda respublikada...



Bax səh. 5

### Azərbaycan nümayəndə heyəti Dünya Turizm Təşkilatının İcraiyyə Şurasının 109-cu sessiyasında iştirak edir

Bəhreyn Krallığının Manama şəhərində keçirilən Dünya Turizm Təşkilatının (DTT) İcraiyyə Şurasının 109-cu sessiyası...



Bax səh. 5

### *Sahib Ələkbərov:* İnanırıq ki, "Tokio 2020"yə yollanacaq Olimpiya yığmamızın tərkibində Azərbaycan velosipedçiləri də olacaqlar

...Velosiped idmanının inkişafı, onun kütləviləşməsi insanların sağlamlığı baxımından mühüm əhəmiyyət daşıyır...



Bax səh. 6

# Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı sosial məsələlərin həllini uğurla təmin edir

***Prezident İlham Əliyev:*** *Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır*

*Son 15 ildə Azərbaycanın dünyaya təqdim etdiyi nümunəvi inkişaf modeli bir sıra spesifik cəhətləri ilə fərqlənir. Bu barədə söhbət açarkən islahatlar aparılması, investisiya təminatının gücləndirilməsi, müxtəlif təşviq tədbirlərinin həyata keçirilməsi yolu ilə ölkənin iqtisadi potensialının davamlı olaraq artırılması və buna adekvat şəkildə sosial məzmunlu siyasətin əhatə dairəsinin daha da genişləndirilməsi amilini xüsusi qeyd edə bilərik. Başqa sözlə desək, respublikamızda iki mühüm istiqamət - iqtisadi və sosial inkişaf paralel şəkildə təmin edilir ki, bu da bütün ölkə miqyasında yüksək vətəndaş məmnunluğunu şərtləndirir, insanlarda sabaha böyük inam yaradır.*

## İQTİSADİ-MALİYYƏ MÜSTƏQİLLİYİNİN TƏMİN EDİLMƏSİ ÖLKƏMİZİN İMKANLARINI ƏHƏMİYYƏTLİ DƏRƏCƏDƏ ARTIRIB

Bu, bir aksiomdur ki, güclü iqtisadiyyat və geniş maliyyə təminatları hər bir ölkənin inkişafının təməlində dayanan əsas faktordur. Biz forpost Ermənistanın timsalında iqtisadiyyatı tənəzzül yaşayan, investisiya təminatı məhdud olan ölkələrin inkişafla, o cümlədən də sosial məsələlərin həlli ilə bağlı necə böyük çətinliklərlə üzləşdiyinin şahidi oluruq. Ermənistanda səfalət içində yaşayan, hansısa bir perspektivə ümid bəsləməyən insanlar elə ilk imkandaca bu ölkəni tərk etməyə çalışırlar.

Azərbaycanın timsalında isə tamam fərqli mənzərə müşahidə edilir. Son 15 ildə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında aparılan məqsədyönlü siyasət sayəsində respublikamız bütün istiqamətlərdə böyük uğurlar qazanıb. Bəhs olunan dövrdə Azərbaycan əsas daxili inkişaf parametrləri, o cümlədən makroiqtisadi sabitlik, sosial təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və digər göstəricilər üzrə region ölkələri içərisində liderliyini möhkəmləndirib. Ötən dövrdə ölkəmizin mənzərəsi müvafiq Dövlət proqramlarına uyğun olaraq bütün regionların tarazlı şəkildə inkişaf etdirilməsi, genişməzmunlu islahatların həyata keçirilməsi, müxtəlif istiqamətlər üzrə strateji yol xəritələrinin qəbul edilərək reallaşdırılması və bu kimi digər müsbət meyillərlə səciyyələnib. Bəhs edilən dövrdə milli iqtisadiyyatımız 3 dəfədən çox olmaqla genişlənib ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab olunur. Bu gün respublikamızın Cənubi Qafqazın ən güclü iqtisadiyyatına malik ölkəsinə çevrilməsi son dərəcə qürurverici haldır. Təsadüfi deyil ki, regionda bütün qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələri məhz Azərbaycanın moderatorluğu ilə reallaşdırılır. Başqa bir qürurverici fakt ondan ibarətdir ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib.

Respublikamızda iqtisadi inkişafın yeni paradiqmaları sırasında qeyri-neft sektoru üzrə müasir sənaye quruculuğu siyasəti mühüm yer tutur. Ölkəmizdə müasir texnologiyaların tətbiqinə əsaslanan elm tutumlu qeyri-neft sənayesinin geniş inkişaf perspektivləri var. 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, hazırda paytaxt Bakıda və regionlarda yeni sənaye müəssisələri yaradılır, paralel şəkildə Pirallahıda, Sumqayıtda, Mingəçevirdə və digər ünvanlarda sənaye parkları formalaşdırılır. Ölkəmizin qısa müddətdə orbitə üç peyk çıxararaq dünya kosmos ailəsinin üzvünə çevrilməsi qürurverici haldır.

Azərbaycanın iqtisadi potensialının davamlı olaraq artmasında qeyri-neft sektorunun mühüm bir qolu kimi aqrar sektorun rolunu xüsusi qeyd etmək lazımdır. Son illərdə ölkə miqyasında böyük potensiala malik aqrar sektor yeni yanaşmalar əsasında inkişaf etdirilir, burada əmək tutumu böyük, gəlir imkanları geniş olan bitkilərin becərilməsi diqqət mərkəzində saxlanılır. 2003-2018-ci illərdə aqrar sektorun güclü inkişafını təmin etmək üçün meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə, bu sahəyə əsaslı kapital qoyuluşu 21 dəfə artıb. Respublika üzrə 32 iri fermer təsərrüfatı yaradılıb və 45 aqroparkın yaradılması hədəflənib. Artıq respublikamızda bir neçə aqropark uğurla fəaliyyət göstərir. Daha bir aqropark Qaxda yaradılıb. Prezident İlham Əliyev cari il oktyabrın 8-də Qax rayonuna səfəri çərçivəsində "Ulu Aqro" MMC-nin Qax Aqroparkının açılışına qatılıb. Ölkəmizdə ilin sonunadək daha 13 aqroparkın istifadəyə verilməsi nəzərdə tutulub. Həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, ötən 15 ildə respublikamızda qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb.

Respublikamızda müasir infrastruktur quruculuğunun diqqət mərkəzində saxlanması böyük aktuallıq daşıyır. Müxtəlif istiqamətlərdə həyata keçirilən layihələr sayəsində ölkənin elektrik enerjisi, içməli su, "mavi yanacaq" təminatı yüksək səviyyəyə qalxıb. Ötən 15 ildə respublika miqyasında 15 min kilometr yol çəkilib və hazırda kənd yollarının abadlaşdırılması ilə bağlı çoxsaylı layihələr uğurla reallaşdırılır. Prezident İlham Əliyevin bir neçə gün bundan əvvəl Qaxa və Şəkiyə səfərləri çərçivəsində müasir standartlar səviyyəsində inşa edilən yeni yollar sakinlərin istifadəsinə verilib. Dövlət investisiya qoyuluşu hesabına yaradılan müasir infrastruktur həm bütün ölkə boyu iqtisadi aktivliyin artmasına müsbət təsir göstərir, həm də insanların sosial rifahının yüksəlməsində, kommunal rahatlıqlarla təmin olunmasında mühüm rol oynayır.

Ölkə miqyasında genişmiqyaslı infrastruktur quruculuğunun həyata keçirilməsi ilə paralel şəkildə, respublikamızın maliyyə təminatı da güclənir. Son 15 ildə respublikamıza daxili və xarici mənbələrdən 250 milyarddan çox investisiyalar yönəldilib. Eyni zamanda, ölkəmizin valyuta ehtiyatları da artır. 2004-cü ildə Azərbaycanın strateji valyuta ehtiyatları cəmi 1,8 milyard dollar civarında idi. Hazırda isə bu rəqəm 46 milyard dollara çatıb.

Belə yüksək iqtisadi inkişaf və maliyyə göstəricilərinə malik olan respublikamızın imkanları da əhəmiyyətli dərəcədə genişlənib. Bu gün milli maraqları qətiyyətlə qoruyan Azərbaycan qüdrətli dövlətdir və qarşısında duran istənilən vəzifəni yerinə yetirməyə qadirdir. Respublikamız özünün inamlı siyasətində məhz güclü iqtisadiyyatına arxalanır. Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində bunu bir daha nəzərə çatdıran Prezident İlham Əliyev vurğulayıb: **"Bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı".**

## RESPUBLİKAMIZDA GÜCLÜ İQTİSADİ İNKİŞAF DƏRİN MƏZMUNLU SOSİAL SİYASƏTLƏ TAMAMLANIR

Yuxarıda vurğuladığımız kimi, ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq iqtisadi və sosial inkişaf paralel şəkildə təmin edilir, güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində Azərbaycanın sosial dövlət olduğunu bir daha nəzərə çatdırıb: **"Son 15 il ərzində biz sosial məsələlərin həllinə çox böyük diqqət göstərmişik. Bunu rəqəmlər də təsdiqləyir. Maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb".**



Respublikamızda milli iqtisadiyyatın sosialyönümlülüyünün təmin olunması nəticəsində əhalinin real gəlirlərinin orta illik artım tempi iqtisadi artım tempini orta hesabla 8,3 faiz bəndi üstələyib, ölkədə yoxsulluğun səviyyəsi 5 faizə enib. Qeyd edək ki, hazırda Azərbaycanda yoxsulluq qlobal yoxsulluq səviyyəsindən 3 dəfə aşağıdır. Ölkəmiz insan inkişafı indeksini MDB dövlətləri üzrə ən yüksək səviyyəyə çatdırıb, BMT-nin İnkişaf Proqramının hesabatında "yüksək insan inkişafı" ölkələri qrupunda yer alıb.

*"Bizim bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımız uğurla inkişaf etməlidir və bu istiqamətdə ardıcıl addımlar atılır. Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı"*

Minilliyin İnkişaf Məqsədlərinə qoşulan respublikamızda əhalinin əmək bazarına inteqrasiyasının dərinləşdirilməsinə böyük diqqət göstərilir. Son 15 ildə ölkə üzrə 1,9 milyon iş yerinin yaradılması bunu bir daha təsdiqləyir. Respublikamızda yeni iş yerlərinin yaradılması daimi prosesə çevrilib. Prezident İlham Əliyevin 7 aprel 2016-cı il tarixli Sərəncamı əsasında 2017-ci ilin əvvəlindən özünüməşğulluq proqramına start verilməsi də ölkədə insanların layiqli iş yerləri ilə təmin edilməsi baxımından böyük önəm daşıyır. Bu proqram sayəsində aztəminatlı insanlar müvafiq dövlət dəstəyi göstərilməklə layiqli əmək fəaliyyətinə cəlb edilirlər. Prezident İlham Əliyev cari il oktyabrın 29-da Şəkiyə səfəri çərçivəsində "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışına qatılıb. Burada keramika və tətbiqi sənətlə məşğul olanlar üçün hər cür şərait yaradılıb. Ümumilikdə burada 40-dək vətəndaş daimi işlə təmin ediləcək. Həyata keçirilən bu və ya digər tədbirlər öz müsbət nəticəsini verir. Hazırda respublikamızda işsizlik 5 faiz səviyyəsindədir ki, bu da dünya üzrə ən yaxşı göstəricilərdən biridir.

Respublikamızda əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər beynəlxalq səviyyədə də yüksək qiymətləndirilir. Məsələn, Davos İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycanın, eyni zamanda, əmək bazarının səmərəliliyi indikatoru üzrə mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Ölkəmiz bu kateqoriya üzrə 9 pillə irəliləyərək 17-ci yerə yüksəlib. Bununla da Azərbaycan əmək bazarının səmərəliliyi indikatoru üzrə sıralamada digər bütün MDB ölkələrindən, eyni zamanda, İsrail, Fransa, İsveç, Belçika, Avstriya, Qətər, Yaponiya, İspaniya, İtaliya, Finlandiya, Latviya, Çin, Malayziya və digər ölkələrdən öndə qərarlaşıb.

Son 15 ildə dövlət başçısının təşəbbüsü ilə əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinib, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilib.

Respublikamız özünün dərin məzmunlu sosial siyasətini bundan sonra da davam etdirəcək. Prezident İlham Əliyev Nazirlər Kabinetinin bəhs olunan iclasında bildirib ki, sosial sahədə ciddi islahatlar aparılır. Vətəndaşlar aparılan islahatların, o cümlədən şəffaflığın təmin edilməsinin, korrupsiyaya qarşı mübarizənin daha da sərtləşdirilməsinin nəticələrini yaxın vaxtlarda öz həyatlarında hiss edəcəklər. Reallaşdırılan islahatlar çərçivəsində ölkəmizdə 2018-ci ildə əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" (DOST) yaradılıb. Prezident İlham Əliyev DOST mərkəzlərinin yaradılmasını yüksək qiymətləndirib. **"Sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri, bunun adı da yaxşıdır - DOST mərkəzləri, mənası da yaxşıdır",** - deyə dövlət başçısı qeyd edib.

## RESPUBLİKAMIZDA QAYĞIYA EHTİYACI OLAN BÜTÜN VƏTƏNDAŞLAR DÖVLƏT TƏRƏFİNDƏN DƏSTƏKLƏNİRLƏR

Azərbaycanda sosial sahədə dövlət siyasəti ona istiqamətləndirilib ki, ölkənin dinamik iqtisadi inkişafından əhalinin bütün təbəqələri, ələlxüsus da xüsusi qayğıya ehtiyacı olan insanlar bəhrələnə bilsinlər. Belə məqsədyönlü siyasətin nəticəsidir ki, respublikamızda aztəminatlı ailələr və xüsusi qayğıya ehtiyacı olan vətəndaşlar hərtərəfli dövlət dəstəyi ilə əhatə olunublar.

Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Son 15 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilib. İlin sonuna qədər həmin kateqoriyadan olan daha 500 nəfərin yeni mənzillərlə təmin olunacağı nəzərdə tutulub. Prezident İlham Əliyev bildirib ki, bəhs olunan kateqoriyadan olan ailələr üçün yeni evlərin tikilməsi perspektivdə daha sürətlə davam etdiriləcək: **"Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Mən bu il bir evin açılışında iştirak edərkən bildirdim ki, bu sahədə işləri sürətləndirmək üçün əlavə vəsait veriləcək. Ondan sonra bu il bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrıldı ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin".**

*"Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək"*

Respublikamızda sosial sferada böyük diqqət göstərilən məsələlərdən biri də qaçqın və məcburi köçkün soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlıdır. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, 2004-cü ildən bəri Prezident İlham Əliyev tərəfindən məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı 55 Fərman və Sərəncam imzalanıb. Dövlət başçısının 2004-cü ilin 1 iyulunda imzaladığı müvafiq Sərəncamla "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiqlənib. Ölkə Prezidentinin 31 oktyabr 2007-ci il tarixli müvafiq Sərəncamı ilə təsdiqlənən Əlavələrə əsasən, Dövlət Proqramının icra müddəti uzadılıb və əhatə dairəsi genişləndirilib. İndiyədək bu məqsədlə 6 milyard manatdan çox vəsait ayrılıb. Respublika miqyasında çadır şəhərcikləri, fin tipli evlər tam ləğv olunub. Dövlət başçısının təsdiqlədiyi müvafiq proqramlara əsasən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlər üçün 100-ə yaxın müasir yaşayış kompleksi salınıb. 2016-cı ilin aprel ayında təhlükəsiz yaşayışı təmin olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi qısa müddət ərzində bərpa edilib, orada 150 evdən ibarət qəsəbə tikilib və köçkünlər öz doğma yurdlarına qayıdıblar. Eyni zamanda, Tərtər rayonunun işğaldan azad olunmuş Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınıb.

*"Son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir"*

Ötən il Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan köçkünlərin yeni mənzillərə köçürülməsi layihəsinin icrasına start verilib. Layihə çərçivəsində birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsi üçün tədbirlər planı hazırlanıb. İndiyədək layihə çərçivəsində inşa edilən bir neçə çoxmənzilli bina istifadəyə verilib.

Qaçqın və məcburi köçkün soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində işlər 2018-ci ildə də intensiv şəkildə davam etdirilib. Təkcə cari ilin doqquz ayında 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunub. İlin sonuna qədər əlavə 2800 ailə yeni fərdi evlərlə və yaxud mənzillərlə təmin ediləcək. Beləliklə, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq. Bu məqamda vurğulamaq yerinə düşər ki, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, habelə Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində böyük xidmətlərinə görə Prezident İlham Əliyev 2015-ci ildə BMT-nin "Cənub-Cənub" mükafatına layiq görülüb.

## AZƏRBAYCANDA BÜTÜN ÖLKƏ BOYU SOSİAL İNFRASTRUKTUR QURUCULUĞU GENİŞ VÜSƏT ALIB

Respublikamızda sosial sahənin prioritetliyinin təmin olunmasını həmçinin bütün ölkə boyu yüksək standartlar səviyyəsində sosial infrastruktur obyektlərinin yaradılmasının timsalında izləmək mümkündür. Son 15 ildə respublikanın hər yerində müasir məktəblərin, səhiyyə ocaqlarının, olimpiya-idman komplekslərinin tikilməsi və yaxud əsaslı şəkildə yenidən qurulması, mədəniyyət və istirahət parklarının salınması bütövlükdə Azərbaycanda aparılan siyasətin sosial mahiyyətini əks etdirir.

Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq təhsilin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Son 15 ildə dövlət başçısının təşəbbüsü ilə məktəb tikintisinə dair bir neçə ayrıca Dövlət Proqramı qəbul edilib və uğurla yerinə yetirilib. Bütövlükdə güclü müasir infrastrukturun yaradılması təhsil sahəsində uğurların əsasını təşkil edir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, respublikamızda təxminən 1 milyon şagirdin təhsil şəraiti yaxşılaşıb, birnövbəli tədris sisteminin tətbiq edildiyi məktəblərin sayı əhəmiyyətli dərəcədə artıb. Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsindəki Savalan yaşayış massivində 28 nömrəli tam orta məktəbin açılış mərasimindəki çıxışında yeni məktəblərin inşasını təhsil sahəsinə çox böyük töhfə kimi dəyərləndirib: **"Son 15 il ərzində Azərbaycanda 3 mindən çox məktəb tikilib və əsaslı təmir edilib. Bu, təhsil sahəsinə çox böyük töhfədir".**

Ötən 15 ildə bütün ölkə boyu 642 tibb ocağı tikilib və yaxud əsaslı şəkildə təmir edilib. 2004-2018-ci illərdə respublika üzrə 17 şəhər və rayonda mərkəzi xəstəxanalar yenidən tikilib. Bu illər ərzində regionlarda yerləşən 28 xəstəxana binası əsaslı təmir olunub. Artıq Goranboy, Qazax, Qobustan və Şəmkir rayon mərkəzi xəstəxanalarının tikintisi başa çatdırılıb, Abşeron, Füzuli və Qəbələ rayon mərkəzi xəstəxana binalarının inşası isə davam edir. Əlamətdar haldır ki, Prezident İlham Əliyev ölkədə yaradılan yeni səhiyyə ocaqlarının əksəriyyətinin açılışında şəxsən iştirak edib və Özünün dəyərli tövsiyələrini verib. Dövlət başçısı regionlara son səfərləri çərçivəsində oktyabrın 11-də Quba rayon Mərkəzi Xəstəxanasının açılışına qatılıb. Prezident İlham Əliyev bəhs olunan səhiyyə ocağının kollektivi ilə görüşündə bildirib ki, səhiyyə sisteminin maddi bazasının yaradılması prosesi başa çatmaq üzrədir.

Ən yüksək standartlar səviyyəsində qurulan və müasir avadanlıqla təchiz edilən tibb ocaqlarında müxtəlif xəstəlikləri müayinə və müalicə etmək mümkündür. Regionlarda istifadəyə verilən yeni tibb ocaqlarında əhaliyə yüksəkkeyfiyyətli səhiyyə xidməti göstərilir. Bu məqamda onu da vurğulamaq yerinə düşər ki, ölkəmizdə Prezident İlham Əliyevin tapşırığına əsasən əhalinin hər il pulsuz tibbi müayinədən keçirilməsi kimi geniş proqram reallaşdırılır. Təkcə cari ilin əvvəlindən bəri respublikada beş milyondan çox insan bu imkanlardan bəhrələnib.

**Mübariz ABDULLAYEV**

# Əli Həsənov: Prezident İlham Əliyev şair Mikayıl Müşfiqlə bağlı məsələni şəxsi nəzarətinə götürüb



Azərbaycan poeziyasının inkişafında böyük rol oynamış, Stalin repressiyasının qurbanı olmuş və 1938-ci ildə güllələnmiş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması ilə bağlı son zamanlar kütləvi informasiya vasitələrində yayılan materiallar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətini cəlb edib.

Cənab Prezident məsələnin araşdırılması üçün Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması barədə göstəriş verib. Tapşırığa əsasən, Mikayıl Müşfiqə məxsus olduğu ehtimal edilən qalıqlar müvafiq qaydada DNK ekspertizasından keçiriləcəkdir. Əgər qalıqların həqiqətən ona məxsus olduğu təsdiqini taparsa, şairin yenidən dəfn olunması ilə bağlı bütün zəruri tədbirlər görüləcəkdir.

Bu haqda AZƏRTAC-a Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov məlumat verib.

Əli Həsənov onu da qeyd edib ki, cənab Prezident həmişə Azərbaycan mədəniyyətinə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə repressiya qurbanı olmuş ziyalılarımızın xatirəsinə böyük diqqətlə yanaşıb. Bunun bariz nümunəsi kimi, dövlətimizin başçısının 2017-ci ilin fevralında Bakının Yasamal rayonu ərazisində keçmiş Statistika dairəsi adlanan yerdə Mikayıl Müşfiqin heykəlinin demontajına münasibətini göstərmək olar. O vaxt cənab Prezident məsələnin araşdırılması, günahkarların cəzalandırılması, heykəlin dərhal öz yerində bərpa olunması ilə bağlı tapşırıq vermiş, həmin göstərişin qısa zamanda icra olunmasından sonra da heykəli ziyarət etmiş və önünə gül dəstəsi qoymuşdur.

Əli Həsənov bildirib ki, Mikayıl Müşfiqin qalıqlarının aşkar olunması barədə yayılan məlumatlar hazırda dövlətimizin başçısının nəzarətindədir. Əminliklə demək olar ki, məsələnin ciddi araşdırılması ilə bağlı qısa zamanda müvafiq tədbirlər görüləcək və nəticə barədə ictimaiyyətə məlumat veriləcəkdir.

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Son iclas" filminin Londonda təqdimatı olub



Böyük Britaniyanın və dünyanın ən nüfuzlu mədəniyyət mərkəzlərindən biri olan Britaniya Kino və Televiziya Sənətləri Akademiyasında "Son iclas" bədii-sənədli filminin təqdimatı olub.

Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi və "BP Azerbaijan" şirkətinin sponsorluğu ilə hazırlanan filmin baş prodüseri Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyevadır.



AZƏRTAC xəbər verir ki, Londonda təşkil olunan təqdimatda çıxış edən Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin müşaviri Rəşad Vahabzadə Azərbaycan Xalq Cümhuriyyətinin tarixi və mövcud olduğu 23 ay ərzində qazandığı nailiyyətlər barədə danışıb.




"BP Azerbaijan" şirkətinin əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli "Son iclas" filmi haqqında danışıb. O, BP şirkətinin bu filmin ərsəyə gəlməsində iştirakından qürur duyduqlarını bildirib.

Ekran əsərində Cümhuriyyət qurucularının müstəqilliyimizin düşmənlərinə - istər işğalçı ordu, istərsə də bu ordunun daxili havadarlarına qarşı son anadək apardıqları qeyri-bərabər və ümidsiz, lakin dönməz və qətiyyətli mübarizəsi əks olunur. Bu mübarizə faciə ilə başa çatsa da, onun Azərbaycanın istiqlal tarixinin şərəfli bir səhifəsi olduğu vurğulanır. Filmdə, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin bu şərəfli tarixinin və faciəli taleyinin Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına böyük örnək olduğu ön plana çəkilir.

Ekran əsəri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Təqdimat mərasiminin iştirakçısı Bob Batler filmlə bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşərək deyib: **"Filmi izlədikdən sonra Azərbaycanın tarixi haqqında çox maraqlı faktlar öyrəndim. Bu film yüksək səviyyədə çəkilib, zövq aldım".**

Mərasimin digər iştirakçısı Nikolas Sauzvel bildirib: **"Əla ekran əsəri izlədik, aktyorların oyununu xüsusi qeyd etmək istəyirəm. Bu, tamaşaçıya Azərbaycanın tarixi haqqında məlumat vermək baxımdan əla filmdir. Yüz il əvvəl Azərbaycanda qadınlara seçki hüququ verilib. Bu, hətta Böyük Britaniyadan da əvvəl olub. Azərbaycanda olmamışam, amma ölkəniz haqqında təsəvvürlərim çox müsbətdir. Tezliklə oraya səfər etməyi planlaşdırıram".**

Antropoloq alim Tamara Draqadze qeyd edib: **"Filmdən zövq aldım. Peşəkar bir sənət əsəri izlədim. Aktyorların oyunu, səhnə quruluşu, hər şey əla idi. Arxiv materiallarından istifadə edilməsi filmin belə gözəl alınmasına səbəb olub".**

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması xalqımızın həyatına şanlı və tarixi hadisə kimi daxil olub. Cəmi 23 ay yaşayaraq istismar altında olan bir ölkəni Şərqin ilk və ən demokratik respublikasına çevirmiş Cümhuriyyət Azərbaycan xalqının milli qürur mənbələrindən biridir.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunub. Cümhuriyyətin 100 iliyi münasibətilə həm ölkədə, həm də xaricdə silsilə tədbirlər keçirilib. Bakı Media Mərkəzi də Azərbaycanın bu şanlı tarixinə töhfə vermək üçün "Son iclas" bədii-sənədli filmini ərsəyə gətirib. Film Azərbaycan Xalq Cümhuriyyətinin keşməkeşli tarixinin son günlərinə işıq salır və hökumətin öz son qərarını hansı çətin şəraitdə verdiyini əks etdirir.

"Son iclas" filminin ilk təqdimatı mayın 25-də Bakıda Heydər Əliyev Mərkəzində olub.

# Böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib

*Tədbirdə Mir Cəlalın 110 illik yubileyi münasibətilə nəşr olunmuş "Füzuli sənətkarlığı" kitabı təqdim edilib*

Oktyabrın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyində böyük pedaqoq, alim, istedadlı yazıçı Mir Cəlal Paşayevin xatirə gecəsi keçirilib. Tədbir çərçivəsində Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabı, həmçinin Mir Cəlal Paşayev və Firidun Hüseynovun "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyinin yenidən işlənmiş dördüncü nəşri təqdim edilib.



## SÖNMƏYƏN İŞIQLAR

AZƏRTAC xəbər verir ki, xatirə gecəsində Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov Mir Cəlal Paşayevin Azərbaycan ədəbiyyatında mövqeyindən söz açıb. Qeyd edib ki, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əhməd Cavad, Abdulla Şaiq, eləcə də Həmid Araslı, Feyzulla Qasımzadə, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Heydər Hüseynov kimi ədəbiyyatşünas alimlər Azərbaycanın gələcəyi üçün öz zəkası və qələmləri ilə işıq yandırmış insanlardır. Onların yandırdığı bu işıq Azərbaycan xalqının yolunu daim aydınlaşdıracaq.



Altmış il əvvəl, 1958-ci ildə Füzulinin vəfatının 400 illiyinin Azərbaycanda qeyd edildiyini xatırladan akademik Rafael Hüseynov Mir Cəlal Paşayevin həmin il nəşr etdirdiyi "Füzuli sənətkarlığı" kitabını ölkəmizdə müasir füzulişünaslığın əsasını qoyan əsər kimi səciyyələndirib. Diqqətə çatdırıb ki, görkəmli ədib 1940-cı ildə "Füzulinin poetik xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Sonralar bu əsəri təkmilləşdirərək "Füzuli sənətkarlığı" adı ilə nəşr etdirib. Kitab "Ədibin Evi" tərəfindən Mir Cəlalın 110 illik yubileyi münasibətilə yenidən çap olunub. Muzeyin direktoru bu kitabın nəşrini işığın qayıtması kimi dəyərləndirib.

## HƏR YAZIÇIDAN JURNALİST OLMAZ, YAXŞI JURNALİST İSƏ YAZIÇI OLA BİLƏR

Mir Cəlalın tələbəsi olmuş Xeyrulla Əliyev müəllimi ilə bağlı xatirələrini bölüşüb. **"İndi qəribə görünsə də, o dövrdə ali məktəblərdə dərsə davamiyyət jurnalları rus dilində yazılırdı. Bu səbəbdən də "Əliyev" familiyası "Aliyev" olurdu. Sanki buna etiraz əlaməti olaraq Mir Cəlal müəllim də, Məmmədhüseyn Təhmasib də, Abbas Zamanov da auditoriyada heç kimin adını həmin jurnaldan oxumaz, tələbələrdən kimin gəlmədiyini qrup nümayəndəsindən soruşardılar. Mir Cəlal müəllim elə sadə danışırdı ki, mən onun mühazirəsini yazmağa ehtiyac duymurdum, eyni zamanda, elə fikirlər söyləyirdi ki, mən onları yazmaya bilmirdim. Mir Cəlal müəllimin fikrincə, hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər"**, - deyən Xəyrulla Əliyev müəlliminin tələbələri yaradıcılığa ruhlandırdığını, yüksək insani keyfiyyətlərini vurğulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Mir Cəlal Paşayevin həyat və fəaliyyəti haqqında fikirlərini bölüşüb. Bildirib ki, bu böyük şəxsiyyət təkcə ədəbi yaradıcılığı ilə deyil, həm də xeyirxah əməlləri, insanpərvərliyi ilə dərin rəğbət və məhəbbət qazanıb. Akademik Akif Əlizadə özünün də bir şəxsiyyət kimi formalaşmasında Mir Cəlal Paşayevin nümunəvi həyatının böyük rolu olduğunu, bu böyük yazıçının Azərbaycan ədəbiyyatı tarixində pedaqoq, alim və ədib kimi ən yüksək zirvəni fəth etdiyini diqqətə çatdırıb. Gənclik dövründə Mir Cəlalla görüşləri barədə xatirələrini bölüşən akademik Akif Əlizadə bu ailənin üzvlərinin bu gün də Azərbaycana işıq gətirdiklərini, ədibin övladlarının və nəvələrinin ölkəmizi dünyada təbliğ etdiklərini vurğulayıb.




## XOŞBƏXT YAZIÇI VƏ PEDAQOQ, XOŞBƏXT ATA

Tədbirdə çıxış edən Xalq yazıçısı Elçin deyib ki, Mir Cəlal müəllim auditoriyaya girəndə əzəmətli bir pedaqoq təsiri bağışlayırdı. Ona görə ki, onun mənəvi dünyası əzəmətli idi, onun yaradıcılığı, daxilindəki xeyirxahlıq əzəmətli idi. Xoşbəxt yazıçı idi, ona görə ki, sovet sisteminə deyil, ədəbiyyata xidmət edirdi. Bugünkü oxucuların - müstəqil Azərbaycan vətəndaşlarının psixologiyası və tələbləri fərqli olsa da, Mir Cəlalın əsərləri indi də sevilə-sevilə oxunur. O, həm də xoşbəxt ədəbiyyatşünas alim idi. Ədəbiyyatşünaslığın sovet ideologiyasının tərkib hissəsi olmasına baxmayaraq, Mir Cəlal yenə də sistemə deyil, Azərbaycan ədəbiyyatının tarixinə xidmət edirdi. O, həm də xoşbəxt pedaqoq idi. Çünki pedaqoji fəaliyyətini komsomol və partiya ideologiyasına deyil, Azərbaycan xalqı üçün gərəkli oğullar yetişdirməyə həsr etmişdi. Mir Cəlal həm də xoşbəxt bir atadır; onun sovet dövründə yetişdirdiyi övladları bu gün müstəqil Azərbaycana layiqincə xidmət edirlər.

Akademik Vasim Məmmədəliyev diqqətə çatdırıb ki, Mir Cəlal böyük şəxsiyyət olduğu qədər də böyük sənətkardır. Onun xalq tərəfindən sevilməsinin səbəbi şəxsiyyətində bu iki keyfiyyətin bir-birini tamamlamasıdır. "Füzulinin sənətkarlığı" kitabı bu gün də hər kəsə lazımdır. Mir Cəlal Paşayev ədəbiyyatın bir çox sahələrində yeni söz demiş alimdir. Təkcə "Füzulinin sənətkarlığı" onun ədəbiyyat tariximizdə qalması üçün kifayət edər.

## GÖZƏL İNSANLARIN GÖZƏL ƏMƏLLƏRİ XATİRƏLƏRDƏ YAŞAYIR

Tədbirdə Feyzulla Qasımzadənin qızı Nigar Qasımzadə, Həmid Araslının qızı Nüşabə Araslı Mir Cəlalla bağlı xatirələrini bölüşüblər. Qeyd olunub ki, onun şəxsiyyəti özlüyündə bir məktəb idi. O, özü də bilmədən ətrafındakı gənclərə bir cəsarət verirdi. Mülayim xasiyyəti vardı, lakin prinsipial idi, mövqeyindən dönməzdi, yersiz güzəştə getməzdi. Bütün bu keyfiyyətləri ilə o, həm yazıçı kimi, həm də şəxsi nümunəsində insanların formalaşmasına müsbət təsir göstərirdi.

Mir Cəlalın tələbəsi olmuş Təhsin Mütəllimov deyib ki, Mir Cəlal müəllimin vəfatından 40 il ötür. Lakin gözəl insanların gözəl əməlləri onlar haqqında xatirələrdə yaşayır. Gərək elə mənalı ömür sürəsən ki, özündən sonra bu qədər xatirə qoyub gedəsən. Mir Cəlal müəllim məhz bu cür mənalı ömür sürüb.

Təhsin Mütəllimov Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı" kitabında dahi Füzuli eşqinin mahiyyətini açdığını vurğulayaraq, kitabın yenidən nəşrini yüksək qiymətləndirib.

Tədbirdə Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyinin qocaman əməkdaşı Cümşüd Muradov, habelə professor Abdulla Abbasov da Mir Cəlalla bağlı xatirələrini bölüşüblər.

Sonda Mir Cəlalın oğlu Hafiz Paşayev tədbirin təşkilinə görə təşəkkürünü bildirərək deyib: **"Siz böyük iş gördünüz. Əslində belə məclislər tez-tez olmalıdır. Ədəbiyyatımızda layiqli yeri olan insanlar çoxdur və onlar haqqında bu cür tədbirlər təşkil edilməlidir".**

Hafiz Paşayev, həmçinin məktəb illərində atasının ona muğam üstündə oxunan qəzəllərin sözlərini izah etməsi ilə bağlı xatirələrini bölüşüb.

Ədibin oğlu qeyd edib ki, Mir Cəlalın "Füzuli sənətkarlığı" kitabı 1958-ci ildən sonra bir neçə dəfə nəşr edilib. Lakin o nəşrlər Mir Cəlalın özünün nəşr etdiyi kitabdan çox fərqlidir. Belə ki, həmin nəşrlərdə müasirləşdirmə aparılıb, dinlə, sovet ideologiyası ilə bağlı yerlər çıxarılıb. Lakin təqdimatı keçirilən kitab 1958-ci il nəşrinin mətninə əsaslanır.

Tədbirdə Aqil Məlikov və Hüseyn Məlikovun ifa etdikləri muğamlarda Füzuli qəzəlləri səsləndirilib.

Qeyd edək ki, "Füzuli sənətkarlığı", "XX əsr Azərbaycan ədəbiyyatı", "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Ədəbiyyatşünaslığın əsasları" adlı fundamental əsərləri ədəbiyyatşünaslıq elminin qiymətli mənbələrindəndir. Mir Cəlal Paşayev təkcə elmi irsi ilə deyil, həm də xeyirxahlığı, böyük müəllimliyi, sadəliyi ilə qəlblərdə özünə abidə ucaldır.

# Aqrar sahənin uğurları Azərbaycanın dinamik inkişafının nəticəsidir

## 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür

*Kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Əminəm ki, kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Kənd Təsərrüfatı Nazirliyi indi çox ciddi islahatlar aparır. Hesab edirəm ki, bu islahatlar nəticəsində kənd təsərrüfatının uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Sərəncamı ilə noyabr ayının 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur. AZƏRTAC kənd təsərrüfatı naziri İnam Kərimovun aqrar sahə işçilərinin peşə bayramı münasibətilə məqaləsini təqdim edir. Məqalədə aqrar sektorda aparılan islahatlar, qazanılan uğurlar və qarşıda duran vəzifələrdən söhbət açılır.**

* * *

### MÜASİR ÇAĞIRIŞLAR FONUNDA YENİ TRENDLƏR

İnsanların zəruri ərzaq ehtiyaclarının ödənilməsi cəmiyyətin inkişafının ilkin mərhələsindən bu günədək əsas çağırışlardan biri olmaqda davam edir. Bu səbəbdən hər bir ölkədə kənd təsərrüfatının inkişafı prioritet vəzifə kimi çıxış edir. 2050-ci ilədək 9,3 milyard nəfər olması gözlənilən dünya əhalisinin qidalanması üçün ümumi ərzaq istehsalının təxminən 70 faiz artırılması zəruri olacaq. Bununla yanaşı, dünyada həyat səviyyəsi standartlarının yüksəlməsi trendinə uyğun olaraq ərzaq məhsulları istehsalının strukturunda sağlam və keyfiyyətli məhsullara tələbat da artmaqdadır.

Buna görə 2015-ci ildə BMT-nin qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" sənədində aclığın ləğv edilməsi, qidalanmanın yaxşılaşdırılması, ərzaq təhlükəsizliyinin və kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsi əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib.

Bu çağırışlar fonunda dünyada kənd təsərrüfatı sahəsinin inkişafında yeni trendlər müşahidə olunur. Qlobal miqyasda urbanizasiya proseslərinin sürətli davamı və 4-cü sənaye inqilabı mərhələsinə keçidin başlaması nəticəsində aqrar sektorun rolunda və strukturunda əhəmiyyətli dəyişikliklər baş verir. Belə ki, torpaq və su resurslarının məhdudluğu fonunda qlobal ərzaq təchizatının əhəmiyyətli dərəcədə artırılması təmin olunmalıdır. Bu isə intensiv istehsal üsullarının və dayanıqlı kənd təsərrüfatı istehsalına imkan verən yeni texnologiyaların tətbiqinin genişləndirilməsini zəruri edir. Ona görə kənd təsərrüfatında müasir texnologiya və innovasiyaların geniş şəkildə tətbiqi hazırda qlobal ərzaq təhlükəsizliyinin gücləndirilməsinin və ətraf mühitə mənfi təsirlərin azaldılmasının əsas vasitəsi kimi çıxış edir. Bunlarla yanaşı, torpaqlardan dayanıqlı istifadə edilməsi, kənd təsərrüfatının qlobal iqlim dəyişikliklərinə uyğunlaşdırılması, ərzaq məhsulları istehsalının həcminin artırılması həm də bu sahədə islahatların davamlı olaraq həyata keçirilməsini zərurətə çevirir.

Tarixən böyük əkinçilik ənənələrinə malik olan Azərbaycan bu beynəlxalq çağırışlara cavab verən azsaylı ölkələrdən biridir. Hələ sovetlər dönəmində Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan geridə qalmış respublikadan böyük potensiala malik aqrar-sənaye kompleksinin formalaşdırıldığı, mövcud resursların səmərəli istifadə edildiyi və intensiv inkişaf mexanizmlərinin geniş tətbiq olunduğu dinamik inkişaf edən ölkəyə çevrildi. Müstəqillik bərpa edildikdən sonra Ümummilli liderin rəhbərliyi ilə tarixi əhəmiyyət kəsb edən aqrar islahatlar uğurla həyata keçirildi və kənd təsərrüfatının dayanıqlı inkişafı üçün möhkəm baza yaradıldı. 1990-1995-ci illərdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində kəskin azalma olduğu halda, 1995-ci ildən sonra bu sahədə davamlı artım əldə edildi. Ən əsası isə, Ulu öndərin siyasi iradəsi ilə həyata keçirilən aqrar islahatlar sayəsində azad bazar münasibətlərinə və özəl mülkiyyətə əsaslanan yeni sistemə uğurlu keçid təmin olundu.

Son 15 ildə aparılan böyük həcmli kompleks işlər sayəsində Azərbaycan bu gün müasir inkişaf mərhələsinə daxil olub. Bu inkişafın əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müstəqilliyimizin, təhlükəsizliyimizin, tərəqqinin, müasirləşmənin, sosial rifahın və iqtisadi inkişafın təmin olunmasında müəyyən edilən siyasi kurs dayanır. Digər sahələr kimi, aqrar sahə də özünün dinamik inkişafı ilə bu çağırışlara cavab verərək, keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Dövlətimizin başçısının qəbul etdiyi siyasi qərarlar kənd təsərrüfatının inkişafı ilə bağlı qabaqcıl tənzimlənmə və dəstək mexanizmlərinin ölkəmizdə də geniş tətbiq olunmasına real zəmin yaradıb.

Aqrar islahatların müasir mərhələsində strateji yanaşmanın əsasını iqtisadiyyatın şaxələndirilməsi və modernləşdirilməsi, neftdən asılılığın azaldılması, qlobal bazarlara daha sıx inteqrasiya olunması, məhsuldarlığın artırılması hesabına istehsal xərclərinin azaldılması və fermerlərin maddi rifahının yüksəldilməsi təşkil edir.

Son illər bu istiqamətdə ölkəmizdə sistemli şəkildə həyata keçirilən islahatlar və göstərilən yüksək dövlət dəstəyi nəticəsində kənd təsərrüfatında istehsal göstəriciləri davamlı olaraq yüksəlib. Bu nəticələr daxili bazarda yerli istehsal hesabına təklifin artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə, fermerlərin gəlir əldə etmək imkanlarının yaxşılaşmasına şərait yaratmaqla bərabər, qeyri-neft ixracının artırılmasına da mühüm töhfə verib.

### KƏND TƏSƏRRÜFATINDA ARTIM DAVAMLI XARAKTER DAŞIYIR

Azərbaycanda həyata keçirilən genişmiqyaslı aqrar islahatlar hesabına kənd təsərrüfatında artım tempi dayanıqlığı ilə seçilir. 2003-2017-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 166,4 faiz, o cümlədən bitkiçilik sahəsində 156,7 faiz, heyvandarlıq sahəsində isə 177,8 faiz təşkil edib. Dünya Bankının məlumatlarına əsasən, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sahəsinin real artımı dünya üzrə orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricisindən yuxarı olub.

Kənd təsərrüfatı sahəsində dinamik inkişaf trendi cari ildə də davam edib, ilk 9 ayda kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı 5,8 faiz, heyvandarlıq məhsullarının istehsalı isə 2,7 faiz artıb. Bir sözlə, dövlətimizin başçısının qeyd etdiyi kimi, **"Biz kənd təsərrüfatının ardıcıl artımını görürük"**.

Aqrar islahatların hazırkı mərhələsi həm də yüksək əlavə dəyər yaradan ənənəvi sahələrin inkişafı baxımından tarixi dönüş dövrü kimi xarakterizə oluna bilər. Belə ki, pambıqçılıq, tütünçülük, çəltikçilik, baramaçılıq, çayçılıq, üzümçülük və sitrus meyvəçiliyi ilə bağlı qəbul olunmuş dövlət proqramları çərçivəsində bu sahələrin inkişafı üzrə tədbirlər ardıcıl və sistemli şəkildə həyata keçirilib. Nəticədə yüksək əlavə dəyər və kənd yerlərində geniş məşğulluq imkanı yaradılan sənaye təyinatlı və ixracyönümlü bu sahələrdə əhəmiyyətli inkişaf dinamikası əldə olunub.

Pambıqçılıqda həyata keçirilən məqsədyönlü tədbirlər məhsuldarlığın artırılmasını və son nəticədə bu sahənin ənənəvi nüfuz və şöhrətinin qaytarılmasını təmin edəcək. Kənd təsərrüfatı məhsulları üzrə emal sənayesinin gücləndirilməsi istiqamətində görülən tədbirlər çərçivəsində Ucar rayonunda pambıq emalı, pambıq yağı və lifsiz pambıq toxumu istehsalı zavodları istifadəyə veriləcək. Bu isə ölkədə sahənin inkişafına mühüm töhfə olmaqla bərabər, lifsiz pambıq toxumuna tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verəcək.

İntensiv ferma modelinin tətbiqinin genişləndirilməsi nəticəsində son illərdə heyvandarlıq sahəsində artım əsasən intensiv inkişaf hesabına təmin edilib.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müqayisəli üstünlüklərin daha da artması hesabına onların ixracında yüksək dinamikaya nail olunub. Son 15 ildə kənd təsərrüfatı məhsullarının ixrac həcmi 6,3 dəfə, o cümlədən meyvə-tərəvəz məhsullarının ixracı 10,4 dəfə, cari ilin səkkiz ayında isə tərəvəz ixracı 8,4 faiz, meyvə ixracı 32,5 faiz və pambıq xammalı ixracı 2,2 dəfə artıb.

Ölkədə uğurla aparılan aqrar siyasət nəticəsində kənd təsərrüfatında əlverişli bazar şərtləri formalaşıb və biznes fəallığı xeyli yüksəlib. Bunlar özünü aqrar sektorda muzdla çalışan işçilərin sayının və investisiya qoyuluşunun həcminin artmasında da büruzə verib.

Yerli istehsal üzrə potensialın gücləndirilməsi və rəqabətqabiliyyətliliyin yüksəlməsi hesabına ölkədə ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə artıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi dövrlərdə ət və süd məhsulları üzrə bu göstərici 30-35 faiz olduğu halda, hazırda 90 faizə yaxındır. Bütün növ tərəvəz və meyvə ilə özünütəminetmə səviyyəsi 100 faizdən çoxdur.

Ayrı-ayrı sahələr üzrə özünütəminetmə səviyyəsinin yerli istehsal hesabına artırılması, inkişaf və idarəetmə məsələlərinin daha çevik tənzimlənməsi, dövlət dəstəyini gücləndirməklə müvafiq sahələr üzrə proqram yanaşmasının tətbiq edilməsi və ünvanlı siyasət tədbirləri mexanizminin yaradılması məqsədilə dövlətimizin başçısının tapşırığına əsasən "Heyvandarlığın intensiv inkişaf etdirilməsinə və örüş-otlaq ərazilərinin səmərəli istifadə olunmasına dair Dövlət Proqramı", "Taxılçılığın inkişafına dair Dövlət Proqramı" və "Toxumçuluğun inkişafına dair Dövlət Proqramı"nın hazırlanması istiqamətində aparılan işlər yekun mərhələsindədir.

### AQRAR İSLAHATLARIN MÜASİR MƏRHƏLƏSİNİN TƏMƏL PRİNSİPLƏRİ

Aqrar sahədə inkişafın davamlılığını təmin etmək üçün müəyyənləşdirilmiş islahatlar elmi yanaşmalara söykənməklə fermerlərin və kənd zəhmətkeşlərinin mənafeyinə xidmət etmək strategiyasına əsaslanır. Bunu nəzərə alaraq, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətində 3 əsas prinsipi - kəndli və fermerlərə yaxınlıq, səmərəli idarəçilik və innovasiyaların tətbiqini rəhbər tutur.

**Nazirlik təməl prinsiplərinə söykənərək funksional fəaliyyətini müasir tələblərə uyğun təşkil etmək üçün beş strateji istiqaməti əsas götürüb:**

**1.** Aqrar təhlil. Aqrar sahədə təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılması və innovativ inkişafı vəzifələrinin icrasını təmin etmək məqsədilə nazirliyin tabeliyində publik hüquqi şəxs statuslu Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb. Bu vəzifələrin həllini təmin etmək üçün Mərkəz beynəlxalq çağırışlara cavab verən və elmi yanaşmalara əsaslanan tədqiqat və analitik-informasiya xidmətlərinin göstərilməsi ilə məşğul olan peşəkar qurum kimi formalaşdırılır.

**2.** Aqrar həllər. Kənd təsərrüfatı sahəsində hazırda ən başlıca vəzifə məhsuldarlığın artırılması hesabına rəqabətqabiliyyətliliyin və ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bu isə bütün istiqamətlərdə innovativ istehsal və idarəetmə texnologiyalarının, müasir və mütərəqqi metod və həllərin geniş tətbiqini tələb edir.

Aqraryönümlü elmi müəssisələrin təminatının gücləndirilməsi, innovativ yeniliklərin fermerlərə çatdırılması, bu qurumların məsləhət xidmətləri şəbəkəsinə çevrilməsi istiqamətində institusional islahatlar aparılaraq Aqrar Elm və İnnovasiya Mərkəzi formalaşdırılıb.

Hazırda aqrar elmin modernləşdirilməsi üzrə islahatlar davam etdirilir. Bu islahatlar çərçivəsində bütün elmi-tədqiqat institutlarının inzibati-laboratoriya binalarının əsaslı təmiri başa çatdırılıb. İnstitutlarda müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi üzrə aqroekologiya və aqrokimya, genetika və seleksiya, ilkin toxumçuluq və tingçilik, xəstəlik və zərərvericilərə nəzarət laboratoriyaları yaradılıb, istixana və toxum emalı məntəqələri tikilib, müasir və məhsuldar meyvə bağları salınıb. Elmi-tədqiqat institutlarında yaradılan potensial hesabına istehsalçılar yüksək məhsuldarlığa malik toxum və tinglərlə təmin ediləcək.

Fermerlərin yüksək kondisiyalı və məhsuldar buğda, arpa və qarğıdalı toxumları ilə təmin edilməsi məqsədilə Xaçmaz, Şəki, Ağcabədi, Qobustan və Tovuz rayonlarında dənli bitki toxumlarının emalı müəssisələri qurulur.

**3.** Aqrar bilik və bacarıqlar. "Biliklər əsri" adlandırılan müasir dövrdə aqrar sahənin dayanıqlı inkişafı, ilk növbədə, elm və təhsilin müasir tələblərə uyğun təşkili ilə bağlıdır. Bu məqsədlə ölkənin aqrar kadr hazırlığının mərkəzi olan Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) təlim planları və proqramları dünyanın qabaqcıl universitetləri ilə əməkdaşlıq çərçivəsində təkmilləşdirilir. Bütün laboratoriyalar tamamilə yenilənərək müasir avadanlıqlarla təchiz edilib, yeni təcrübə bazaları yaradılıb, peşəkar mütəxəssislərin hazırlanması məqsədilə təşviqedici addımlar atılıb. Dövlətimizin başçısının tapşırığına əsasən bu ildən qəbul imtahanlarında 400 və 500-dən yuxarı bal toplayaraq ADAU-nun aqraryönümlü ixtisaslarına qəbul olunan tələbələrə müvafiq olaraq 100 və 200 manat əlavə təqaüdün verilməsinə başlanılıb.

Aqrar sahədə müasir tələblərə cavab verən təlim və informasiya məsləhət xidmətləri sisteminin mövcudluğu sahənin rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün mühüm şərtlərdən biri kimi çıxış edir. Bu məqsədlə nazirlik tərəfindən "Fermerlərə təlim və məsləhət xidmətlərinin təşkili üzrə Strategiya" hazırlanıb, fermerlərə peşəkar təlimlərin və məlumatlandırma tədbirlərinin keçirilməsinə başlanılıb.

Kənd təsərrüfatı sahəsi üzrə modernləşdirilmiş elmi tədqiqatlar, təhsil, təlim və informasiya məsləhət xidmətləri sisteminin formalaşdırılması istiqamətində fəaliyyətlərin sistemli şəkildə həyata keçirilməsi məqsədilə "Aqrar Elm və Təhsilin İnkişafı üzrə Dövlət Proqramı" hazırlanaraq aidiyyəti üzrə təqdim olunub.

**4.** Aqrar dəstək. Məhsul istehsalçılarının stimullaşdırılması, onların istehsal xərclərinin azaldılması və gəlir əldə etmək imkanlarının artırılması məqsədilə dövlət tərəfindən böyük həcmdə dəstək tədbirləri göstərilir. Son 10 ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına müxtəlif dəstək tədbirləri üzrə 1.2 milyard manata yaxın subsidiya ödənilib.

Aqrar sektorun bütün istiqamətləri üzrə təminatının, xüsusilə kənd təsərrüfatı texnikası ilə təchizatın daha da yaxşılaşdırılması üçün dəstək və xidmət tədbirləri davam etdirilib. "Aqrolizinq" ASC tərəfindən ölkəyə 44 minə yaxın kənd təsərrüfatı texnikası, 843 min ton mineral gübrə və 30 mindən artıq damazlıq heyvan gətirilərək güzəştli şərtlərlə lizinq yolu ilə istifadəyə verilib.

Nazirlik tərəfindən yaradılmaqda olan "Elektron kənd təsərrüfatı" informasiya sisteminin tətbiqi aqrar sahədə, o cümlədən subsidiyaların verilməsində şəffaflığı və çevikliyi təmin edəcək. Bütün xidmətlərin "elektron hökumət" üzərindən həyata keçirilməsi fermerlərə əlavə üstünlüklər yaradacaq. Onların məhsuldarlıq və satış üzrə proqnozlaşdırma imkanları, məlumatlılığı artacaq, dövlət xidmətlərinin sadələşdirilməsinə və sənədlərin azaldılmasına, xidmətlərin əlçatanlığına, habelə yeni bazar alətlərinin tətbiqinə imkan verəcək.

Fermerlərə göstərilən dövlət qayğısının institusional mexanizmlərinin təkmilləşdirilməsi, aqrar sahədə xidmətyönümlü fəaliyyətə üstünlüyün verilməsi, fermerlərlə işin gücləndirilməsi, innovasiyadan istifadə ilə bağlı maarifləndirmənin həyata keçirilməsi məqsədilə Azərbaycan Prezidentinin müvafiq Fərmanına uyğun olaraq rayon (şəhər) kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf mərkəzləri (DAİM) yaradılıb. Bununla yanaşı, nazirlik yanında Fermerlər Şurası və Aqrar Məşvərət Şurası təsis edilib. DAİM-lərin və burada fəaliyyət göstərən Fermer Şuralarının formalaşdırılması prosesi yekunlaşıb.

**5.** Aqrar ticarət. Kənd təsərrüfatı sahəsində hazırda iqtisadi fəallığın yüksəlməsi, bu sahəyə böyük həvəsin göstərilməsi və məhsul bolluğunun yaranması müşahidə olunur. Fermerlər üçün bazar şərtlərinin yaxşılaşdırılması, məhsulların satılmasına və satışda yaranan problemlərin aradan qaldırılmasına yardımın göstərilməsi məqsədilə nazirlik yanında Dövlət Aqrar Ticarət Şirkəti yaradılıb.

Ölkə iqtisadiyyatının bütün sahələrində, o cümlədən aqrar sahədə əldə edilən uğurlar və yüksək nəticələr Azərbaycanda dinamik inkişafın göstəricisidir. Bu tərəqqi və rifah, əhalinin maddi durumunun əhəmiyyətli dərəcədə yaxşılaşması aparılan məqsədyönlü dövlət siyasətinin bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı durur". Öz şərəfli əməyi ilə ölkənin ərzaq təhlükəsizliyinə misilsiz töhfələr verən və əhalinin davamlı surətdə ərzaqla təmin olunması missiyasını üzərinə götürən kənd əməkçiləri və fermerlər də dövlətin xüsusi diqqət və qayğısı ilə himayə olunub. 1 noyabr Kənd Təsərrüfatı İşçiləri Gününün təsis edilməsi onların tükənməz əməyinə dövlət tərəfindən verilən yüksək qiymətin bariz nümunəsidir. Kənd zəhmətkeşlərinin gərgin əməyi sayəsində aqrar sahədə qazanılan nailiyyətlər və davamlı uğurlar dövlətimizin başçısının onlara verdiyi bu qiymətin, göstərdiyi yüksək diqqət və qayğının nəticəsidir.

Kənd Təsərrüfatı Nazirliyinin kollektivi peşə bayramı münasibətilə bütün kənd təsərrüfatı işçilərini, xüsusilə məhsul istehsalı ilə məşğul olan kənd zəhmətkeşlərini ürəkdən təbrik edir, onlara şəxsi həyatlarında və işlərində uğurlar arzulayır.

**İnam Kərimov**
**Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri**

# Bakıda TürkPA-nın hüquqi məsələlər və beynəlxalq əlaqələr komissiyasının altıncı iclası keçirilib

Oktyabrın 31-də Milli Məclisdə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) hüquqi məsələləri və beynəlxalq əlaqələr komissiyasının altıncı iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin deputatı, komissiyanın sədri İsmət Uçmanın sədrlik etdiyi iclasda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədən olan parlament nümayəndələri və ekspertlər iştirak ediblər.

İsmət Uçma əvvəlcə iclasın gündəliyinə daxil edilən layihələrin əhəmiyyətindən danışıb.

Azərbaycanın müstəqillik tarixindən bəhs edən İsmət Uçma bildirib ki, 1918-ci ildə böyük mübarizə nəticəsində qardaş Azərbaycan öz müstəqilliyini elan edərək Azərbaycan Xalq Cümhuriyyətini yaradıb. Cəmi 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində süquta uğrayıb. 1991-ci ildə isə Azərbaycan yenidən öz müstəqilliyini bərpa edib. Azərbaycan nadir maddi-mənəvi nemətləri, insan qaynaqları, yeraltı və yerüstü sərvətləri, əldə etdiyi nailiyyətlərlə dünyanın əhəmiyyətli ölkəsinə çevrilib. Azərbaycanın hər bir uğuru Türkiyəni çox sevindirir. Türkiyə qardaş ölkə kimi daim Azərbaycanın yanındadır.

İsmət Uçma qeyd edib ki, türkdilli ölkələr öz aralarında sosial, siyasi, iqtisadi sahələrdə əməkdaşlığı daha da inkişaf etdirərək dünyaya bir nümunə göstərəcəklər. Keçən 10 il ərzində TürkPA üzvləri tərəfindən bir çox uğurlara imza atılıb. Bildirilib ki, toplantılar, müxtəlif mövzulardakı konfranslar, təcrübə mübadiləsi sayəsində qardaş ölkələrimiz arasında parlament səviyyəsində əməkdaşlığın daha da genişləndirilməsi çox əhəmiyyətlidir. Bu il noyabrın 20-də İzmirdə TürkPA-nın 10 illiyi qeyd ediləcək. Ümid edirəm ki, 10 il ərzində gördüyümüz işlər gələcək üçün yol xəritəsi ola biləcək.

Sonra Milli Məclisin deputatı Cavanşir Feyziyev gündəlikdəki məsələlərlə bağlı fikirlərini səsləndirib. Bildirilib ki, son 3 il ərzində keçirilən toplantılar çox önəmli və faydalıdır. TürkPA-nın fəaliyyətdə olduğu 10 il ərzində ortaya türk dünyası üçün əhəmiyyətli olan çox böyük işlər qoyulub. Bütün bunlar təqdirəlayiqdir və gələcək üçün böyük vədlər verən fəaliyyətdir.

TürkPA-nın baş katibi Altınbek Mamayusupov İslam dünyasında ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə xalqımıza təbriklərini çatdırıb. Cari ilin önəmli tarixlərlə zəngin olduğunu deyən Altınbek Mamayusupov bildirib ki, Qazaxıstanda da Astana şəhərinin qurulmasının 20, qazax ədəbiyyatının məşhur və önəmli şairlərindən biri Maqcan Cumabayevin 125 illiyi, Qırğızıstanda isə türk dünyasını və mədəniyyətini dünyaya tanıtdıran böyük qırğız yazıçısı Çingiz Aytmatovun 90 illiyi ilə bağlı tədbirlər keçirilir.

İclasda "TürkPA katibliyinin Maliyyə Əsasnaməsi", "TürkPA-nın göstərdiyi xidmətə görə medalları və medal vəsiqələrinin Əsasnaməsi", "2017-ci il üçün TürkPA katibliyinin icrasının illik auditi", "TürkPA-ya üzv dövlətlərin terrorizmə qarşı mübarizə haqqında qanunvericiliyə dair ortaq mövqeyinin müəyyənləşdirilməsi üzrə hesabat məruzəsi" layihələri ətraflı müzakirə edilib.

# Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub




Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının mətbuat üçün açıqlamasında bildirilir.

Oktyabrın 31-də keçirilən brifinqdə açıqlamanı təqdim edən Prezident Administrasiyasının məsul əməkdaşı Vüsal Şıxəliyev deyib ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2015-ci ilin sonlarından başlayaraq neft qiymətlərinin aşağı düşməsinə baxmayaraq, Azərbaycanda aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib. Aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib.

Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə yanaşı, “Doing Business 2019” hesabatının da bütün indikatorlarını əhatə edib. Nəticədə 2017-ci il və 2018-ci ilin ilk 4 ayında təkcə bu hesabat üzrə 30-a yaxın normativ hüquqi akt qüvvəyə minməklə 70-dən çox islahat tədbiri həyata keçirilib və qeydə alınması üçün “Doing Business” komandasına təqdim olunub. Aparılan islahatlar nəticəsində vətəndaşların və sahibkarların məmnunluğunun artırılması, bu sahədə şəffaflığın təmin olunması ilə yanaşı, müxtəlif sektorlar üzrə inzibati prosedurların sayının və xərclərin minimuma endirilməsi, dövlət xidmətlərinin göstərilməsində keyfiyyətin daha da yüksəlməsinə nail olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, “Doing Business 2019” hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib.

Bildirilib ki, hesabata əsasən ölkəmiz “Tikinti üçün icazələrin alınması” və “Kreditlərin alınması” indikatorlarının hər biri üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib. Bunlarla yanaşı, “Kiçik investorların maraqlarının qorunması” indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, “Biznesə başlama” (9-cu yer) indikatoru üzrə isə ilk onluğa düşməyə nail olunub. Bütövlükdə “Doing Business 2019” hesabatının 10 indikatorundan 8-i üzrə mühüm irəliləyiş qeydə alınıb. Eyni zamanda, əmək bazarının tənzimlənməsi indikatoru üzrə də aparılmış islahatlar Dünya Bankının ekspertləri tərəfindən qəbul edilib.

“Doing Business 2019” hesabatında deyilir: “Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib” (“DOING BUSINESS 2019” - Training for Reform”, World Bank Group, page 13.).

Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

Qeyd etmək lazımdır ki, Dünya Bankının hər il hazırladığı “Doing Business” hesabatı biznes mühitinin asanlığının qiymətləndirilməsi üçün dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunur. “Doing Business” komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların yoxlanılması məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

“Doing Buisness” hesabatı xarici investorlar tərəfindən biznes mühitinə dair etibarlı mənbə kimi istinad edilən əsas reytinq göstəricisi olmaqla yanaşı, digər beynəlxalq təşkilatlar tərəfindən hazırlanan hesabatlarda (“Qlobal Rəqabətlilik Hesabatı”, “Qlobal İnnovasiyalar İndeksi”, “İqtisadi Azadlıq İndeksi”, “Qlobal İmkanlar İndeksi” və s.) baza rolunu oynayır.

**“Bu, çox böyük uğurdur, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks islahatlar, xüsusilə qeyd edilən sahələr üzrə aparılan təkmilləşmə tədbirləri nəticəsində nail olunmuş növbəti nailiyyətlərdən biridir. Sözsüz ki, bu uğurların həyata keçirilməsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrimizin də rolu var və bu sahədə Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyasını xüsusi qeyd etmək lazımdır”,** - deyə Vüsal Şıxəliyev qeyd edib.

Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) ölkəmizdəki daimi nümayəndəsi Aliyə Əzimova bildirib ki, bu gün Azərbaycanın inkişafında və iqtisadi islahatlar sahəsində uzun bir yolun əhəmiyyətli nöqtəsindəyik. Azərbaycan müstəqillik dövründə iqtisadi sahədə böyük uğurlara nail olub. Qeyri-neft sektorunun inkişafını prioritet kimi müəyyən etmiş ölkə üçün “Doing Business” göstəricilərində uğurların əldə edilməsi növbəti inkişaf istiqamətlərini aydın görməyə imkan verir. Azərbaycan ötən il həyata keçirilən islahatların sayına görə regionda ön sırada olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, əldə olunmuş nəticə Azərbaycan üçün tarixi rekorddur. Azərbaycan dünyada ən çox islahat aparan ölkədir. Çünki Azərbaycan hazırda “Doing Business” islahatlarına görə dünyada lider ölkədir və dünyanın top islahatçı ölkəsi statusunda qiymətləndirilib. “Doing Business” islahatı səviyyəsinə görə Azərbaycan postsovet məkanında ikinci, MDB məkanında birinci ölkədir. Bu islahatlar dövlətimizin başçısının siyasi iradəsi ilə aparılıb. Azərbaycan MDB məkanında ən sürətlə irəliləyən ölkədir. Ölkəmiz “Doing Business” hesabatında 32 pillə irəliləyib. Qazaxıstan 8, Rusiya 4, Belarus 1, Qırğızıstan 7, Ukrayna 5, Özbəkistan 2, Tacikistan isə 3 pillə geriləyib.

# Azad Kərimli: Ölkəmizdə xərçəng xəstəliklərinin müalicəsi üzrə ciddi tədbirlər həyata keçirilib




***Hazırda Azərbaycanda qeydiyyata alınmış neçə onkoloji xəstə var? Bu xəstəliyə erkən mərhələdə qalib gəlmək olarmı? Bədxassəli şişlərin yaranmasının əsas səbəbləri hansılardır? Xərçəng xəstəliyinə tutulmuş insanlar çox yaşaya bilərmi?***

***AZƏRTAC-ın müxbirinin bu və digər suallarına Milli Onkologiya Mərkəzinin baş həkimi, Azərbaycan Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli aydınlıq gətirir.***

***Milli Onkologiya Mərkəzinin baş həkimi söhbətimizin əvvəlində dedi:***

- Təəssüf ki, bütün dünyada olduğu kimi Azərbaycanda da onkoloji xəstəliklərə tutulmuş insanların sayı artmaqdadır. Hazırda respublikada 45.756 onkoloji xəstə qeydiyyata alınıb. 2016-cı ildə belə xəstələrin sayı 43.927, 2015-ci ildə isə 40.653 idi. Lakin xərçəng xəstəliklərinin sayı demək olar ki, ölkə əhalisinin sayı ilə paralel artır. Əhalinin sıxlığı artan ərazilərdə həm onkoloji, həm də digər xəstəliklərin statistikası artır. Müvafiq göstəriciləri qonşu ölkələrin statistik məlumatları ilə müqayisə etsək, deyə bilərik ki, respublikamızda xərçəng xəstələrinin sayı o qədər də çox deyil. Bundan əlavə, hazırda ölkəmizdə yeni törəmələrlə beş ilə yaxın və daha artıq müddət yaşayan 17.527 xəstə var.

**- Xərçəngin və onkologiyanın yaranmasının əsas səbəbləri hansılardır?**

- Onkoloji xəstələrin sayının artmasında ekologiya problemləri, qida rejimi, yeyinti məhsullarının keyfiyyəti, yeni texnologiyaların tətbiqi ilə əlaqədar şüalanma və radiasiya səviyyəsinin çoxalması mühüm rol oynayır. Nəzərə almaq lazımdır ki, ətraf mühitin çirklənməsi onkoloji xəstəliklərlə bərabər, başqa xəstəliklərin də əmələ gəlməsinə rəvac verir. Xərçəng şişi erkən mərhələdə aşkar ediləndə müvəffəqiyyətlə müalicə olunur, lakin onkoloji xəstəliklərin əmələ gəlməsinin dəqiq səbəbləri dünya praktikasında hələ müəyyən edilməyib.

Xəstəliyin erkən mərhələsində həkimə müraciət etməyi məsləhət görürəm, çünki bu, xərçəngin bəzi formalarından şəfa tapmaq ehtimalını xeyli artırır. Bütün dünyada olduğu kimi, Azərbaycanda da qadınlar arasında çox vaxt süd vəzisi, kişilər arasında ağciyər, traxeya və bronxların xərçənginə təsadüf olunur. Bu xəstəliklərə çox vaxt yaşı 50-dən yuxarı olan insanlar tutulur. Amma daha gənc yaşlarda da bu xəstəliklərdən əziyyət çəkənlər var. Xoşbəxtlikdən, yaşlılarla müqayisədə uşaqlar çox vaxt bu xəstəliklərdən müalicə olunurlar.

İnanın mənə, xərçəng sözündən qorxmaq lazım deyil, çünki xərçəng erkən mərhələdə aşkar ediləndə müalicə olunan xəstəlikdir. Xəstəliyin qarşısının alınması üçün profilaktiki tədbirləri vacib sayıram, xanımlara 35-40 yaşından sonra mammoqrafiyadan keçməyi məsləhət görürəm, çünki mammoqrafiya süd vəzisi xərçənginin üzə çıxarılmasının ən müasir və dəqiq metodudur. Xərçəng elə bir xəstəlikdir ki, ondan hələ heç kəs sığortalanmayıb. İnsanlarda belə bir rəy formalaşıb ki, guya onkologiya diaqnozu həyatın üstündən xətt çəkmək deməkdir. Əslində isə bu diaqnozla bir neçə on il yaşayan insanların sayı az deyildir. Özünüzü bu xəstəlikdən qorumaq üçün ildə bir dəfə həkim müayinəsindən keçmək lazımdır. Təəssüf ki, bütün dünyada ancaq bu xəstəlik şiddətləndə və III-IV mərhələyə keçəndə ondan xəbər tuturlar. Yeri gəlmişkən, xəstəliyə qarşı mübarizədə bütün məsuliyyəti onkoloqların üzərinə qoymaq olmaz. Son vaxtlar xərçəngə qarşı mübarizədə maarifləndirmə işinin yaxşılaşmasına baxmayaraq, telekanallar bu işdə daha fəal iştirak etməli, əhalini onkoloji xəstəliklər barədə daha geniş məlumatlandırmalıdırlar.

Bundan əlavə, biz rayonlara gedəndə maraqlı hallarla üzləşirik. İnsanlar xəstəliyi ən böhranlı vəziyyətə çatdırırlar. Mən bu insanları qınaya bilmərəm, çünki bütün bunlar məlumatsızlıqdan irəli gəlir.

**- Xahiş edirəm, Azərbaycanda onkoloji xidmətin yaranması və inkişafı tarixi barədə bir qədər məlumat verin.**

- Azərbaycanda onkoloji xidmət böyük və uğurlu inkişaf yolu keçib. XX əsrin 30-40-cı illərində məlum oldu ki, Azərbaycanda onkologiyanın inkişafına mane olan ən mühüm səbəblərdən biri bədxassəli şiş problemləri ilə məşğul olan ixtisaslaşdırılmış elmi-tibbi müəssisənin olmamasıdır. Bununla əlaqədar, 1941-ci ilin yanvarında Bakıda Azərbaycan Dövlət Elmi-Tədqiqat Rentgenologiya və Radiologiya İnstitutu (ETRRİ, - indiki Milli Onkologiya Mərkəzi) təşkil edildi. ETRRİ-nin yaradılması Azərbaycanda Rentgenologiya və Radiologiya xidmətinin inkişafı üçün böyük əhəmiyyət kəsb edib. Bu institutda aparılan elmi araşdırmaların əsas istiqamətləri respublikada bədxassəli şişlərin epidemiologiyası və xərçəngin kombinə edilmiş kompleks müalicəsi üçün səmərəli metodlar yaratmaqdan ibarət idi. İnstituta müxtəlif illərdə rəhbərlik etmiş İsaak Ginzburq, Mustafa Əlikişibəyov, Rəhim Rəhimov kimi tanınmış alimlərin hər biri Azərbaycanda onkoloji xidmətin inkişafına çox böyük töhfələr verib.

Lakin 1990-cı ilin mart ayında Azərbaycanda səhiyyənin böyük təşkilatçısı, gənc mütəxəssislərin bütöv bir nəslini yetişdirmiş, mərkəzin yeni binalarının tikintisi məsələsinin həllinə xeyli qüvvə sərf etmiş görkəmli alim - akademik Cəmil Əliyev Milli Onkologiya Mərkəzinin direktoru vəzifəsinə təyin ediləndən sonra respublikada onkoloji xidmətin inkişafında əsaslı irəliləyiş baş verib. Əvvəllər bizim onkoloq həkimlər çox ağır şəraitdə işləyirdilər. Məsələn, mürəkkəb cərrahiyyə əməliyyatları aparılması üçün şərait yox idi. Bu gün isə Milli Onkologiya Mərkəzinin yerləşdiyi əraziyə nəzər salsaq görərik ki, burada böyük bir tibb şəhərciyi salınıb. Əvvəllər bütün onkoloji əməliyyatlar bir binada aparılırdısa, 2009-cu ildə Milli Onkologiya Mərkəzinin cərrahiyyə korpusu inşa ediləndən sonra bu sahədə tərəqqi müşahidə olunur. Həmin korpusun açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etdilər.

2014-cü ildə yeni müalicə korpusunun və onkologiya mərkəzinin bədxassəli şişlərin molekulyar diaqnostikası laboratoriyasının açılışı oldu. 2016-cı ilin aprelində Milli Onkologiya Mərkəzinin nəzdində təkcə Azərbaycanda deyil, bütün regionda ilk və yeganə olan Nüvə Təbabəti Mərkəzi açıldı. Burada “Siemens” şirkəti tərəfindən ən yeni texnologiyalar əsasında yaradılmış və minimal doza ilə sürətli müayinə aparmağa imkan verən “Biograph mCT-S40” pozitron-emission tomoqrafiya/ kompüter tomoqrafiyası aparatı (PET/KT) istifadəyə verilib.

2012-ci ilin mart ayında Uşaq Onkoloji Klinikasının açılışı olub. Hazırda Milli Onkologiya Mərkəzinin bütün regionda flaqman müəssisəsi sayılan Uşaq Onkoloji Klinikasında kimyəvi terapiya, şüa terapiyası, cərrahi müalicə, immun terapiyası və digər kompleks müalicə üsulları çox yüksək səviyyədə tətbiq edilir. Klinikada uşaq cərrahiyyəsi, uşaq kimyəvi terapiyası, uşaq şüa terapiyası, uşaq anesteziologiya və reanimasiyası bölmələri var. Milli Onkologiya Mərkəzinin regionda ilk uşaq klinikasının yaradılmasına Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva böyük töhfə veriblər.

**- Azərbaycanda onkoloji xəstəliklərə qarşı mübarizə sahəsində hansı tədbirlər görülüb?**

- Ölkəmizdə xərçəng xəstəliklərinin müalicəsində ciddi addımlar atılıb və bu iş planauyğun şəkildə davam etdirilir. Onkologiya sahəsində sanballı nəticələrə nail olmuşuq. Milli Onkologiya Mərkəzi Azərbaycan Prezidentinin diqqət və qayğısı sayəsində hazırda ən müasir tibbi texnika ilə, o cümlədən mobil diaqnostik kompleks ilə təchiz edilib. Onkoloji xəstələrin şiş əleyhinə preparatlarla təmin edilməsi ilə bağlı problemlər bu şəkildə aradan qaldırılıb. Zəngin maddi-texniki bazası və güclü kadr potensialı olan Milli Onkologiya Mərkəzini artıq dünyanın aparıcı onkoloji mərkəzləri ilə bir sıraya qoymaq olar. Mərkəzin əməkdaşları onkoloji xəstələrə yüksək keyfiyyətli xidmətlər göstərir, bədxassəli şişlərin erkən diaqnostikasını aparır, xəstələri ən müasir cərrahi metodlar, şüa terapiyası və dərman preparatları ilə müalicə edir, mövcud müalicə metodlarını daha da təkmilləşdirmək məqsədilə irimiqyaslı elmi araşdırmalara geniş yer verirlər. Milli Onkologiya Mərkəzi ilə ABŞ-ın bədxassəli şişlərin radioterapiyası üçün müasir texnologiyalar layihələndirən və istehsal edən “Varian Medical Systems” şirkəti arasında 2014-cü il oktyabrın 8-də imzalanmış əməkdaşlıq haqqında Saziş son illərin nailiyyətlərindəndir. Bununla da Milli Onkologiya Mərkəzinə rəsmi referens-mərkəz statusu verilib. Sənəd tərəfdaşlar arasında əməkdaşlığın genişlənməsinə, müasir texnologiyaların Azərbaycana daha tez gətirilməsinə, xarici mütəxəssislərlə geniş fikir mübadiləsi aparmağa imkan yaradır. Bununla yanaşı, həmin Saziş Milli Onkologiya Mərkəzində xəstələrə göstərilən xidmətlərin yüksək səviyyədə olmasının dünyanın digər aparıcı klinikaları tərəfindən təsdiq olunmasına dəlalət edir. “Varian Medical Systems” şirkətinin Bakıdakı referens-mərkəzində mütəmadi olaraq radioterapiya üzrə praktiki məşğələlər keçirilir, əcnəbi həkimlər üçün radioterapiyanın müasir metodlarına həsr edilmiş klinik proqramlar üzrə məşğələlər təşkil edilir. Qeyd etmək istəyirəm ki, radioterapiya, stereotaksik radiocərrahiyyə və şüa terapiyası kimi müasir metodların mənimsənilməsi çox mürəkkəb məsələdir. Bu müalicə metodu yüksək ixtisaslı kadrlar və müasir avadanlıq tələb edir. Onkologiya mərkəzində bu istiqamətdə məqsədyönlü iş aparılır. Məsələn, şüa terapiyası şöbəsində ən müasir kompüter proqramları ilə təchiz olunmuş braxiterapiya üçün yüksək enerjili 7 xətti sürətləndirici, kompüter simulyator-tomoqrafı və digər aparatlar tətbiq edilir. 2015-ci ilin noyabrında Milli Onkologiya Mərkəzi ilə M.D.Anderson adına Onkoloji Mərkəz (M.D. Anderson Cancer Center, ABŞ) arasında uzunmüddətli əməkdaşlıq haqqında müqavilə imzalanıb. 2016-cı ilin fevral ayında İsveçrənin “Roche Tissue Diagnostics” şirkəti Milli Onkologiya Mərkəzinin klinik-biokimya laboratoriyasına Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə referens-mərkəz statusu verib. Beləliklə, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Tacikistan, Qırğızıstan və Özbəkistanın onkoloji mərkəz və laboratoriyaları Milli Onkologiya Mərkəzinin ən müasir standartlara cavab verən laboratoriyasının imkanlarından istifadə edə biləcəklər. Onu da qeyd etmək istərdim ki, Dünya Səhiyyə Təşkilatının (DST) baş direktoru doktor Tedros Adxanom Qebreyesus bu ilin iyul ayında ölkəmizə səfəri çərçivəsində Milli Onkologiya Mərkəzində olub. Doktor Tedros Adxanom Qebreyesus bir sıra mühüm sahələrdə DST ilə Azərbaycan arasında əməkdaşlığın səviyyəsindən məmnun olduğunu bildirərək bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. DST-nin baş direktoru qeyd edib ki, onkoloji xəstələrin keyfiyyətli müalicəsi üçün Milli Onkologiya Mərkəzində yaradılmış müasir şərait dünya standartlarına tam uyğundur. O, onkoloji xəstəliklərin profilaktikası və müalicəsi üçün burada aparılan işləri yüksək qiymətləndirib.

**- Mərkəz hansı təhsil tədbirlərini və sosial aksiyaları həyata keçirir?**

- Milli Onkologiya Mərkəzi adətən xərçəngin mütəmadi müayinə və profilaktikasının zəruri olmasına diqqəti cəlb edən aksiyalar keçirir. Məsələn, Milli Onkologiya Mərkəzində “Qadın dünyası” adlı mammologiya bölməsi yaradılıb və bu bölmənin bütün əməkdaşları qadınlardır. Bundan əlavə, təbabət elminin ayrı-ayrı sahələrində çalışan azərbaycanlı və əcnəbi alimlər, tədqiqatçılar və həkimlər arasında əlaqələrin nizamlanması, elmin və təbabətin qarşılıqlı əlaqələri sahəsində ən yeni nailiyyətlərin müzakirə edilməsi məqsədilə Milli Onkologiya Mərkəzində beynəlxalq elmi-praktiki konfranslar keçirilir. Məsələn, bu il sentyabr ayında Azərbaycan Milli Onkologiya Mərkəzi xərçəngə qarşı mübarizə üzrə ən nüfuzlu təşkilat sayılan, hazırda 40 minə yaxın üzvü olan Amerika Klinik Onkologiya Cəmiyyəti (American Society of Clinical Oncology, ASCO) ilə əməkdaşlıq çərçivəsində “Xərçəngin beynəlxalq multidissiplinar müalicəsi” mövzusunda beynəlxalq konfrans keçirib. Amerikalı mütəxəssislər bizim Mərkəzdə aparılan elmi-tədqiqat işləri və beynəlxalq əməkdaşlıq strategiyası ilə maraqlandılar. Burada çox mürəkkəb cərrahiyyə əməliyyatları və ciddi elmi araşdırmalar aparıldığını yəqin edəndən sonra bizimlə əməkdaşlıq barədə qərar qəbul etdilər.

Oktyabrın əvvəlində minimal invaziv müalicə metodikası və erkən diaqnostika sahəsində ixtisaslaşan dünya şöhrətli “Olympus” konserni ilə birlikdə II Bakı Endoskopik Forumu təşkil edilib. Elmi-nəzəri konfranslar təkcə ölkəmizin paytaxtında deyil, regionlarda da keçirilir. Məsələn, bu il yayda Milli Onkologiya Mərkəzinin mobil diaqnostika kompleksi Laçın rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində, Füzuli rayonunun Horadiz qəsəbəsində, həmçinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində əhalinin müayinəsini aparıb. Bundan əvvəl mobil diaqnostika kompleksi Ağcabədi və Beyləqan rayonlarında olub. Bu gün akademik Cəmil Əliyevin rəhbərlik etdiyi Milli Onkologiya Mərkəzi respublika əhalisinə ixtisaslı onkoloji yardım göstərilməsi üzrə elmi-metodik və profilaktik işlərin əlaqələndirilməsi ilə məşğul olan əsas qurumdur.

**- Müsahibə üçün sağ olun.**

# Azərbaycan nümayəndə heyəti Dünya Turizm Təşkilatının İcraiyyə Şurasının 109-cu sessiyasında iştirak edir

Bəhreyn Krallığının Manama şəhərində keçirilən Dünya Turizm Təşkilatının (DTT) İcraiyyə Şurasının 109-cu sessiyası işini davam etdirir. Qırxa yaxın ölkədən 100-dən çox nümayəndənin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Azərbaycan Respublikasının İspaniya Krallığında və Andorra Knyazlığındakı səfiri, eyni zamanda, Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Anar Məhərrəmov və Dövlət Turizm Agentliyinin beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Cəmilə Talıbzadədən ibarət nümayəndə heyəti təmsil edir.




Azərbaycanın İspaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev tədbirdə çıxış edərək üzv ölkələr arasında əməkdaşlığın vacibliyini və bu işbirliyinin Azərbaycanda turizmin inkişafındakı rolunu vurğulayıb.

F.Nağıyev turizm sənayesinin inkişafı üçün ölkəmizdə görülən işlər və həyata keçirilən islahatlar, bu islahatların müsbət nəticələri haqqında məlumat verib. Həmçinin cari ilin aprelində dövlətimizin başçısının müvafiq Fərmanı ilə yaradılan Dövlət Turizm Agentliyinin fəaliyyətinin əsas istiqamətləri vurğulanıb.

Bu il oktyabrın 18-də Azərbaycanın yeni turizm imicinin və loqosunun yerli ictimaiyyətə açıqlandığını qeyd edən sədr yeni brendin noyabrda Londonda keçiriləcək Dünya Səyahət Bazarı beynəlxalq turizm sərgisi çərçivəsində beynəlxalq ictimaiyyətə təqdim ediləcəyini bildirib.

Dövlət Turizm Agentliyinin sədri sonda BMT-nin Dünya Turizm Təşkilatının İcraiyyə Şurasının növbəti - 110-cu sessiyasının 2019-cu ildə Bakıda keçiriləcəyini xatırladıb və bu münasibətlə bütün üzv dövlətləri ölkəmizə dəvət edib.

# Müdafiə naziri Naxçıvan istiqamətində işğaldan azad edilmiş ərazilərdə olub





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfər edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov işğaldan azad edilmiş ərazilərdə olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Günnüt kəndi və ətraf ərazilərdə yerləşən mövqelərdə, Qızılqaya yüksəkliyində yaradılmış etibarlı müdafiə sistemi, görülmüş mühəndis işləri və yeni mövqelərdə qısa zamanda tikilən əsgəri-məişət kompleksləri ilə tanış olub. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımi avadanlıqla, daimi işıq və istilik sistemi ilə təchiz edilib.

General-polkovnik Z.Həsənov ön xətdə əsgər və zabitlərlə görüşüb, xidmətin təşkili ilə maraqlanıb. Nazir xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edib.

# Bakıda “İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması” mövzusunda müzakirələr aparılıb





Oktyabrın 31-də Bakıda Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramının birgə reallaşdırdığı “Azərbaycanda peşə təhsili və təlimi mərkəzlərinin müasirləşdirilməsi” qrant proqramı çərçivəsində “İnformal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması” mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, müvafiq qurumların nümayəndələrinin, peşə təhsili müəssisələri əməkdaşlarının, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyi təmsilçilərinin, ekspertlərin iştirak etdikləri tədbirdə təhsil naziri Ceyhun Bayramov ölkəmizdə peşə təhsilinin inkişafına xüsusi önəm verildiyini bildirib və bu sahədə həyata keçirilən tədbirlərdən danışıb. Nazir peşə təhsilinin ölkənin sosial-iqtisadi inkişafına təkan verən, iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını təmin edən aparıcı təhsil pilləsi olduğunu, bu sahədə ölkə rəhbərliyi tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

C.Bayramov “Peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi”, “Peşə təhsili haqqında” Qanunun əhəmiyyətini qeyd edib, peşə təhsilində uğurlu nəticələrin əldə olunacağına əminliyini vurğulayıb. Nazir informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınmasının Strateji Yol Xəritəsinin əsas hədəflərindən biri olduğunu deyib. O, bu sahədə beynəlxalq əməkdaşlığın səmərəli olduğunu vurğulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iqtisadiyyatda müasir meyillərin peşə təhsili qarşısında yeni tələblər qoyduğunu və əmək bazarında rəqabətə davamlı ixtisaslı kadrlara tələbatın artdığını söyləyib, kadr hazırlığı sisteminin inkişafı istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İsaqzai həyata keçirilən layihələrin ölkəmizdə peşə təhsili sisteminin məzmun və keyfiyyətinin yaxşılaşdırılmasına təkan verdiyini bildirib, yeni yaradılan mərkəzlərin peşə təhsilinin inkişafı sahəsində mühüm rol oynayacağına inamını ifadə edib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Aleksandra Nerisanu təmsil olunduğu qurum ilə ölkəmiz arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini, əsas diqqətin respublikamızda peşə təhsilinə yönəldiyini və bir sıra birgə layihələrin həyata keçirildiyini söyləyib.

Tədbirdə informal və qeyri-formal üsullarla əldə edilmiş səriştələrin tanınması mexanizmi ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi və hazırlanacaq normativ sənədlərlə bağlı geniş müzakirələr aparılıb.

Sonra plenar iclaslarda “Vətəndaşların qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması Qaydaları” layihəsi barədə beynəlxalq ekspertlərin fikirləri dinlənilib.

Qeyd edək ki, konfrans Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin İnkişaf Proqramı tərəfindən icra olunan “Gəncədə Sənaye üzrə Regional Peşə Kompetensiya Mərkəzinin yaradılmasına dəstək” layihəsi çərçivəsində reallaşdırılıb.

# Azərbaycanın Ümumi Tranzit Konvensiyasına qoşulması gömrük proseslərinin daha da sadələşdirilməsində xüsusi rol oynayacaq

Azərbaycanın Ümumi Tranzit Konvensiyasına qoşulması gömrük proseslərinin daha da sadələşdirilməsi və sənədləşmə işlərinin azaldılmasında xüsusi rol oynayacaq.



Alman-Azərbaycan Xarici Ticarət Palatasından (AHK Azərbaycan) AZƏRTAC-a bildiriblər ki, bu barədə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev oktyabrın 31-də palataya üzv şirkətlər üçün təşkil edilmiş növbəti AHK-İmpuls tədbirində deyib.

Tədbirin əsas mövzusu Azərbaycanda gömrük sahəsində davam edən islahatlar və son yeniliklər olub. Tədbirin fəxri qonağı Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev “Ticarətin asanlaşdırılması üçün aparılan gömrük islahatları” mövzusunda məruzə ilə çıxış edib. Gömrük sistemində aparılan əsas islahatlar haqqında məlumat verən S.Mehdiyev şəffaflığın təmin olunması və korrupsiyaya qarşı mübarizənin aparılması nəticəsində idxalda artımın müşahidə olunduğunu deyib. Komitə sədri, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində atılan addımlar, Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq nəticəsində Aİ ölkələrinin gömrük sistemləri modelinin Azərbaycanda tətbiqi haqqında danışıb və dünya ticarətində baş verən yeniliklərin Azərbaycanda gömrük sahəsindəki islahatlarda nəzərə alındığını bildirib.

Qeyd olunub ki, Azərbaycanın Ümumi Tranzit Konvensiyasına qoşulması gömrük proseslərinin daha da sadələşdirilməsi və sənədləşmə işlərinin azaldılmasında xüsusi rol oynayacaq. Bu sahədə işçi qrupu yaradılıb və layihənin ilkin mərhələsi həyata keçirilməkdədir.

Müasir və sadə prosedurların tətbiqi və qanunvericiliyə uyğunlaşdırılması barədə çıxış edən DGK sədri yaşıl dəhliz sisteminin təkmilləşdirilməsi və gömrük xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində aparılan işlər barədə tədbir iştirakçılarını məlumatlandırıb, gömrük rüsumlarının ödənilməsində könüllülük prinsipinin tətbiqinin vacibliyini vurğulayıb.

Təşkilati-struktur və kadr islahatlarına xüsusilə toxunan S.Mehdiyev komitədə ciddi kadr dəyişiklikləri və struktur islahatlarının həyata keçirilməkdə olduğunu bildirib. Yeni gömrük məcəlləsi və normativ sənədlərin beynəlxalq ekspertlərin rəy və tövsiyələri nəzərə alınaraq qəbul olunduğu, strukturda Avropa standartlarının tətbiq olunduğu qeyd olunub. Eyni zamanda, bildirilib ki, məmur-vətəndaş təmasının minimuma endirilməsi qurumun hazırkı prioritetlərindən biridir və bu istiqamətdə elektron xidmətlərin keyfiyyətinin və sayının artırılması və statistik məlumatların hökumət məlumat portalına inteqrasiyası sahəsində görülən işlər davam etdirilir.

Çıxışının sonunda komitə sədri bu cür görüşlərin gömrük sahəsində aparılan tədbirlərin uğurlu şəkildə davam etdirilməsinə töhfə verdiyini və tədbirdə biznes nümayəndələri tərəfindən irəli sürülən rəy və təkliflərin gələcək islahatlarda nəzərə alınacağını qeyd edib.

“AHK Azərbaycan” üzvlərinin gömrüklə bağlı sorğularının cavablandırıldığı sual-cavab sessiyasından sonra “BDO Azərbaycan” MMC şirkətinin hüquqi xidmətlər departamentinin rəhbəri Sabit Abdullayev və baş meneceri Azər Əkbərov “Azərbaycanda hasilat sənayesində benefisiar sahiblik məlumatlarının açıqlanmasına dair yol xəritəsinin tətbiqinə dəstək” mövzusunda təqdimat keçirib.

# Sahib Ələkbərov: İnanırıq ki, “Tokio 2020”yə yollanacaq Olimpiya yığmamızın tərkibində Azərbaycan velosipedçiləri də olacaqlar



Ekoloji cəhətdən ən təmiz nəqliyyat növü olan velosipedə ölkəmizdə həm idman növü, həm də nəqliyyat vasitəsi kimi maraq son illər xeyli artıb. Azərbaycanda idmanın bu növünün təbliği istiqamətində son illər mühüm tədbir, yarış və layihələr həyata keçirilir. Bu istiqamətdə ən mühüm tədbir bu ilin iyununda Bakıda BMX velosipedi üzrə dünya çempionatının keçirilməsi oldu.

Azərbaycan Velosiped İdmanı Federasiyasının birinci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyi rəhbər komitəsinin üzvü Sahib Ələkbərov ölkəmizdə velosiped idmanının inkişafı sahəsində görülən işlər, yüksək səviyyədə təşkil olunan nüfuzlu yarışlar, yeniyetmə və gənclər arasında bu idman növünün geniş təbliği istiqamətində həyata keçirilən tədbirlərlə bağlı AZƏRTAC-ın müxbirinin suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.

**- Sahib müəllim, Azərbaycanda velosiped idmanının inkişafı, bu sahəyə marağın artırılması istiqamətində hansı işlər görülür?**

- Velosiped idmanının inkişafı, onun kütləviləşməsi insanların sağlamlığı baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, təkcə idman növü kimi deyil, həm də nəqliyyat vasitəsi olaraq önəm kəsb edən velosipeddən istifadə edənlərin sayının artması böyük şəhərlərdə tıxac probleminin həlli və ekoloji durumun yaxşılaşdırılması baxımından çox vacibdir. Hesab edirəm ki, həm federasiyamız, həm də bir sıra digər qurumlar tərəfindən təşkil edilən maarifləndirici tədbirlər və layihələr təkcə yeniyetmə və gənclərdə deyil, eyni zamanda, daha yuxarı yaş qrupuna aid olan insanlar arasında da velosipedə marağı getdikcə artırır. Cəmi 5-6 il bundan əvvəl şəhər və rayonlarımızın küçələrində azyaşlı uşaqlar istisna olmaqla, velosipedçilər, demək olar ki, gözə dəymirdi. Son bir neçə il ərzində bu sahədə kifayət qədər çoxsaylı tədbirlərin, veloyürüşlərin keçirilməsi nəticəsində insanların velosipedə marağının artmasını görmək olduqca xoşdur. Bir neçə gün bundan əvvəl 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə Respublika Velotrekində həvəskarlar arasında keçirdiyimiz açıq Azərbaycan çempionatında 300 nəfərdən artıq velosipedçinin iştirakı bunu bir daha sübut edir.

**- Velosiped idmanı üzrə yerli və beynəlxalq yarışların təşkili artıq ənənə halını alıb. Veloyürüşlərin idmanın bu növünün inkişafında rolunu necə qiymətləndirirsiniz?**

- Xüsusi vurğulanmalı məqamdır ki, şose velosiped idmanı hər bir ölkənin təbliği baxımından mühüm əhəmiyyətə malikdir. Çünki bu idman növü üzrə yarışlar hansısa qapalı məkanda deyil, açıq havada, təbiətin qoynunda, yollarda, küçə və parklarda təşkil olunur. “Tour d’Azerbaidjan” kimi beynəlxalq səviyyəli veloturların təşkili dünyanın Azərbaycanı daha yaxından tanımasına imkan yaradır. Planetin müxtəlif ölkələrindən gələn insanlar respublikanın iqtisadiyyatı, mədəniyyəti, adət-ənənələri, təbiəti ilə tanış olur və bu baxımdan ölkəmizdə keçirilən velosiped yarışları Azərbaycanın xaricdə tanıdılması üçün yaxşı perspektivlər vəd edir. Azərbaycan Velosiped İdmanı Federasiyası olaraq, biz ölkəmizdə bu sahənin inkişafından, velosipeddən bir nəqliyyat vasitəsi kimi istifadə edənlərin sayının son bir neçə il ərzində on dəfələrlə artmasından, bu məsələlərdə bizim də müəyyən əməyimizin olmasından məmnunluq hiss keçiririk və velosiped sürməyi insanların həyat tərzinə çevirmək istəyirik. Təbiidir ki, velosiped sürənlərin sayı nə qədər çox olarsa, idman bölmələrinə üz tutanların sayı da artacaq. Məşqçilərimizin yeniyetmə və gənclər arasında seçim imkanının daha çox olması idman nəticələrimizin yüksəlməsinə də birbaşa təsir edəcək.

**- Azərbaycan velosiped idmanının BMX növü üzrə dünya çempionatına ev sahibliyi etdi. Bu nüfuzlu yarışın ölkəmizdə təşkili ilə bağlı nə deyə bilərsiniz?**

- Bu ilin iyununda Azərbaycan velosiped idmanının BMX növü üzrə (Olimpiya idman növü) dünya çempionatına ev sahibliyi etdi. İlin əvvəlində çempionatın keçirilməsi ilə bağlı bəzi çətinliklər ortaya çıxsa da, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığından sonra bütün çətinliklər aradan qaldırıldı və bu yarış da həmişə olduğu kimi ən yüksək səviyyədə baş tutdu. Dünyanın müxtəlif ölkələrindən 1500-dən artıq idmançının iştirak etdiyi dünya çempionatının təşkilatçılıq səviyyəsi Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) tərəfindən olduqca yüksək qiymətləndirildi, Azərbaycan öz təşkilatçılıq bacarığını bir daha bütün dünyaya nümayiş etdirdi. Yarış 50-dən çox ölkədə canlı yayımlandı. Turniri izləmək üçün ölkəmizə gələn UCI prezidenti David Lappartien Prezident İlham Əliyev ilə görüşündə Azərbaycanda bütün beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini, BMX üzrə dünya çempionatının da ən yüksək standartlar səviyyəsində təşkil edildiyini söylədi. Beynəlxalq Velosipedçilər İttifaqının sentyabrın 28-də keçirilən konqresində həm hesabat məruzəsində, həm də UCI prezidentinin çıxışında Bakıda keçirilmiş dünya çempionatı haqqında çox yüksək fikirlər səsləndirildi. Dünyanın 194 ölkəsindən nümayəndələrin iştirak etdikləri konqresdə ölkəmizdə velosiped idmanının inkişafına yüksək qiymət verilməsi təbii ki, olduqca xoşdur. Onu da qeyd etmək lazımdır ki, BMX üzrə bu nüfuzlu yarış Azərbaycan tarixində ölkəmizdə keçirilmiş sayca dördüncü dünya çempionatı olub.



**- Olimpiya növü olan BMX-nin ölkəmizdə inkişafı və maddi-texniki bazasının yaradılması sahəsində hansı işlər görülüb?**

- Son illər ərzində kifayət qədər populyarlıq qazanan və Azərbaycanın idman sahəsində vizit kartına çevrilən, hər il nüfuzlu “Eurosport” telekanalı ilə canlı və ya icmal şəklində yayımlanan “Tour d’Azerbaudjan” veloturu şose velosipedini ölkəmizdə necə sevdiribsə, BMX növü üzrə dünya çempionatından sonra da eyni marağı hiss edirik. Avropanın açıq səma altında ən böyük və ən gözəl idman qurğularından biri olan BMX Veloparkında artıq bu idman növü ilə məşğul olan yeniyetmə və gənclərimizin sayı gündən-günə artır. Məlumat üçün bildirmək istərdim ki, bu idman qurğusu olduqca gözəl ərazidə yerləşir - bir tərəfi dəniz, digər tərəfi isə dağlıq və 40 hektara yaxın sahəni əhatə edən meşəlik. Bu meşə zolağı 1970-ci illərin əvvəllərində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və şəxsən iştirakı ilə salınıb və Ulu öndərimizin şəxsən əkdiyi ağaclar bu gün də Velopark ərazisində qalır. Təəssüf ki, ötən əsrin 90-cı illərində bu ərazi ayrı-ayrı şəxslər tərəfindən zəbt olunmuş və orada qanunsuz tikintilər aparılmışdı. Yalnız 2005-ci ildə dövlətimizin başçısı İlham Əliyevin göstərişindən sonra bu qanunsuzluqlara son qoyuldu.

2013-cü ildə ərazi idman bazası kimi Azərbaycan Velosiped İdmanı Federasiyasına təhkim edildikdən sonra burada geniş abadlıq və quruculuq işləri aparıldı, yüz mindən çox ağac və kol əkildi, velosipedçilər üçün 5 velosiped marşrutu yaradıldı. 2015-ci il ilk Avropa Oyunları ərəfəsində isə burada dünya standartlarına cavab verən yeni BMX stadionu inşa edildi. Bu ərazi həm idman, həm də insanların dincələ biləcəyi avtomobilsiz istirahət ərazisinə çevrilib. Hər bir şəxs istədiyi zaman buraya gəlib təmiz hava ala, istirahət edə və idmanla məşğul ola bilər. Onu da qeyd etmək yerinə düşər ki, şəhərin mərkəzində - metronun “20 Yanvar” stansiyasının yaxınlığındakı Respublika Velotrekində də bu idman növü ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb.

**- 2018-ci ilin son aylarını yaşayırıq. Velosipedçilərimizin beynəlxalq yarışlarda çıxışlarını qənaətbəxş saymaq olarmı?**

- Bu il Azərbaycanın şose velosipedi üzrə yeniyetmə və gənclərdən ibarət yığma komandalarının üzvləri dünya və Avropa çempionatları ilə yanaşı, bir sıra beynəlxalq turnirlərdə də iştirak ediblər. May ayında Türkiyənin Ordu şəhərində təşkil olunmuş açıq çempionatda yeniyetmə qızların kriterium yarışlarında idmançımız Viktoriya Sidorenko fərqlənərək fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Heyəti Nəcəf Bağırov, Xankişi İsgəndərov, Qadir Mustafayev, Şahin Eyvazov, Əli Qurbanov və Mahmud Məmmədovdan ibarət olan gənclər yığmamız isə qrup və kriterium ötüşmələrinin yekununda komanda hesabında bürünc medala layiq görülüb.

İyulda qardaş Türkiyənin Kastamonu şəhərində keçirilmiş beynəlxalq turnir də idmançılarımızın uğurlu çıxışı ilə yadda qalıb. Yarışın gənclər kateqoriyasında fəxri kürsünün hər üç pilləsində Azərbaycan velosipedçiləri qərarlaşıb. Yüz kilometrlik marşrutu Mahmud Məmmədov hamıdan tez qət edərək finiş xəttini birinci keçib. Yığmamızın digər üzvləri İvan Orlov və Xankişi İsgəndərov isə müvafiq olaraq, 2-3-cü yerləri tutublar. Əli Qurbanov 5-ci nəticə göstərib. Yığmamız komanda hesabında da qalib olub.

Heyətində Elit və U23 yığma komandaların yer aldığı “Synergy Baku Cycling Project” kontinental komandasının üzvləri də il ərzində beynəlxalq turnirlərdə uğurla çıxış ediblər. Kiril Pozdnyakov Türkiyədə birgünlük Alanya Qran-Prisinin, Mersin Turunun 1-ci mərhələsinin, Rusiyada “Moskvanın 5 halqası” yarışının 4-cü mərhələsinin, Belçikada birgünlük “Dentergem” yarışının qalibi olub. Digər nüfuzlu yarışlarda Samir Cəbrayılov, eləcə də Kiril Pozdnyakov mükafata layiq yerlər tutublar. Velosipedçilərimizin əldə etdikləri uğurlar ildən-ilə artır.

**- Gələn il “Tokio-2020”yə lisenziya yarışları baxımından Olimpiya idman növləri üçün ciddi sınaq ili olacaq. Velosiped yığmamızın bu sahədə perspektivləri varmı?**

- Yığma komandamız yaxşı formadadır. Velosipedçilərimiz çoxlu yarışlarda iştirak edib, zəngin təcrübə toplayıblar. Gələn il üçün əsas prioritet istiqamətlərdən biri də “Tokio 2020”yə lisenziya xallarının toplanması olacaq. Belə ki, artıq həm şose, həm də trek velosipedində dördilliyin zirvə yarışına lisenziya xalları verən yarışlar silsiləsi start götürüb və proses gələn ilin sonunadək davam edəcək. İnanırıq ki, təmsilçilərimiz bu vəzifənin öhdəsindən gələcəklər və “Tokio 2020” Yay Olimpiya Oyunlarına yollanacaq geniş heyətli Olimpiya yığmamızın tərkibində Azərbaycan velosipedçiləri də olacaq.

# Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatı Şurasının iclası keçirilib





Dünən Yeni Azərbaycan Partiyası (YAP) Qaradağ rayon təşkilatı Şurasının iclası keçirilib. Tədbirdə YAP Qaradağ rayon təşkilatında görülən işlər və qarşıda duran vəzifələr geniş müzakirə olunub. Yığıncaqda çıxış edən YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov YAP-ın Azərbaycanın və regionun ən güclü və nüfuzlu siyasi təşkilatı olduğunu diqqədə çatdıraraq partiyamızın ötən 26 ildə çox böyük inkişaf yolu keçdiyini qeyd edib. O, Yeni Azərbaycan Partiyasının xalqı öz ətrafında birləşdirərək ümumxalq partiyasına çevrildiyini, eyni zamanda, ölkədə demokratiyanın inkişafında aparıcı qüvvə kimi özünü təsdiqlədiyini bildirib. Vurğulayıb ki, YAP-ın amalı xalqa, Vətənə, dövlətə sədaqətlə xidmət etməkdən ibarətdir. **"Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır. Qısa müddət ərzində Yeni Azərbaycan Partiyası xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilati struktur yaradaraq avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün, gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin, etimadının dayandığını bir daha sübut edir"**, - deyə Aydın Hüseynov qeyd edib.

Millət vəkili vurğulayıb ki, Prezident İlham Əliyevin müstəqil ölkəmizin inkişafı, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi genişmiqyaslı tədbirlər, onun real nəticələri partiyanın hər bir üzvü qarşısında məsul vəzifələr qoyur.

Yığıncaqda çıxış edən YAP Qaradağ rayon təşkilatının sədr müavini Munis Bayramov, rayon təşkilatı aparat rəhbəri Hacı İbrahimov, Qadınlar Şurasının sədri Hicran Xəlilova, Gənclər Birliyinin sədri Ramiz Yusubov, rayon təşkilatı Qaz Emalı zavodu ərazi ilk partiya təşkilatının sədri Nizami Quliyev, Sədərək Ticarət Mərkəzi ərazi ilk partiya təşkilatının sədri Sabir Ələkbərov və digərləri gündəlikdə duran məsələlərlə bağlı təklif və fikirlərini bildirib, rayon təşkilatının ötən müddətdə fəaliyyətini yüksək qiymətləndiriblər. İclasda həmçinin Yeni Azərbaycan Partiyasının üzvlüyünə qəbulla əlaqədar ərazi ilk partiya təşkilatlarının qərarları təsdiq edilib, YAP-ın yaranmasının 26-cı ildönümü ilə əlaqədar ərazi ilk partiya təşkilatlarında keçiriləcək tədbirlər müzakirə olunub.

# Yüksəkkeyfiyyətli qida məhsullarının idxalı üçün sahibkarlara hər cür kömək göstəriləcək





Oktyabrın 31-də Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli qida məhsullarının idxalı ilə məşğul olan sahibkarlarla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə sədr əhalinin sağlam və təhlükəsiz qida məhsulları ilə təmin edilməsinin agentlik qarşısında duran əsas vəzifə olduğunu bildirib. O, ölkəyə təhlükəsiz, eləcə də beynəlxalq standartlara uyğun qida məhsullarının idxalının qida təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd edib.

Onun verdiyi məlumata görə, son dörd ayda ölkəmizə qida məhsulları idxal edən şirkətlər üzərində dövlət nəzarəti zamanı 56 şirkətin idxal etdiyi məhsulların təhlükəsiz olduğu müəyyən edilib. Onların ölkəyə idxal etdiyi qida məhsullarının laborator ekspertizasının nəticələri bunu deməyə əsas verir.

Agentlik sədri əlavə edib ki, noyabrın 1-dən qida məhsulları idxal edən bir sıra şirkətlərə asanlaşdırılmış nəzarət sistemi tətbiq olunacaq: **"Yəni daha aşağı riskli məhsulların laborator müayinəsi, ekspertizası və nəzarətə cəlb olunma tezlikləri daha uzun müddətli, yüksək riskli məhsulların araşdırılması isə daha sıx tezliklə həyata keçiriləcək. Bu, sahibkarlara daha asanlıqla müxtəlif ölkələrdən qida məhsulları idxal etməyə imkan verəcək".**

Sahibkarlarla görüşdə qeyd olunub ki, son illər milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi çərçivəsində həyata keçirilən islahatlar, kənd təsərrüfatı və qida sənayesi sektorunda müasir standartların tətbiq olunması yerli istehlakçıların hüquqlarının müdafiə olunmasına və idxal zamanı qida məhsullarının təhlükəsizliyinin təmin edilməsinə nəzarət imkanlarını genişləndirir. Agentliyin sədri ölkəyə təhlükəsiz və yüksəkkeyfiyyətli qida məhsullarının idxalı, qida zəncirinin bütün mərhələlərində, eləcə də qida məhsullarının tədarükü, qablaşdırılması, saxlanılması, daşınması və dövriyyəsi zamanı qanunvericiliyin tələblərinə əməl olunmasının vacibliyini sahibkarların nəzərinə çatdırıb. O, bundan sonra da idxalçı sahibkarlara hər bir metodiki kömək göstəriləcəyini, qida zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maarifləndirilməsi işlərinin davam etdiriləcəyini də bildirib.

Q.Təhməzli jurnalistlərin suallarına cavab verərkən deyib: **"Qida təhlükəsizliyi ilə əlaqədar sanitariya-gigiyena qaydaları ən çox ictimai iaşə müəssisələrində, şadlıq evlərində, xüsusilə də insanların kütləvi qidalanma məkanlarında pozulur. Həmin müəssisələrdə xüsusi monitorinqlər keçiriləcək. Qida təhlükəsizliyi sahəsində agentliyin aparacağı yoxlamalar zamanı, əsasən, həmin ictimai iaşə müəssisələrinə xəbərdarlıq ediləcək. Müəssisə sahiblərinə mənşəyi məlum olmayan məhsulların kütləvi istifadəsinin qadağan olduğu və yalnız qida təhlükəsizliyi sertifikatı ilə təmin olunmuş ərzaqların istifadəsinin vacibliyi xatırladılacaq. Ümumiyyətlə, bütün iaşə müəssisələrinin istifadə etdikləri məhsullar müvafiq ekspertizalara cəlb olunmalı, əməkdaşları isə dövri tibbi müayinələrdən keçməlidir. Qida hazırlanan yerlər sanitar-texniki və sanitar-gigiyenik göstəricilərə uyğun olmalıdır. Əks təqdirdə həmin müəssisələr üzərində lazımi dövlət nəzarəti həyata keçirilərkən inzibati tədbirlər görüləcək".**

Görüşdən sonra agentliyin sədri jurnalistləri maraqlandıran bir sıra suallara cavab verib.

# "Nar" AzTU-da tələbələr üçün mobil rabitə təlimi təşkil edib





"Nar" özünün KSM strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Mobil operatorun AzTU-da tələbələr üçün "Mobil rabitənin əsasları" mövzusunda növbəti təlimi baş tutub. Təlim "Nar"-ın yerli mütəxəssislərindən ibarət peşəkar texniki heyəti tərəfindən keçirilib. Təlimə qatılan tələbələr və gənc mühəndislər mobil şəbəkənin fəaliyyəti, mobil internetin əsasları, 2G, 3G və 4G rabitə texnologiyaları, mövcud şəbəkələrin işləmə prinsipi və inkişafı haqqında nəzəri və təcrübi biliklər əldə ediblər. Tələbələrə telekommunikasiya ilə bağlı suallar verilib. Sualları düzgün cavablandıran tələbələr "Nar" tərəfindən xüsusi hədiyyələr qazanıblar.

Təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar"-ın bu təşəbbüsü tələbələrin dərslərində daha uğurlu olmalarına və gələcək karyeralarında lazım olacaq məlumatlar əldə etmələrinə xidmət edir.

Xatırladaq ki, 2016-ci ildə Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılıb. Müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada peşəkar texniki işçi heyəti tərəfindən tələbələr üçün təlim və seminarlar keçirilir. Tələbələr mobil rabitə üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanırlar. Proqram çərçivəsində praktiki biliklərini inkişaf etdirən bir qrup gənc ixtisaslı kadr kimi yetişmək üçün mobil operatorda ilk addımlarını atır. Universitetdəki laboratoriyanın təchizatı və tələbələr üçün nəzərdə tutulmuş təcrübə proqramı "Nar"-ın gənclər və təhsilə yönəlmiş KSM strategiyası çərçivəsində həyata keçirilir.

"Nar"ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

# Nikolas Löbel: Almaniya Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır



Oktyabrın 31-də ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının deputatı, hakim Xristian-Demokrat/-Xristian-sosial İttifaqı fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbel Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin və Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycan-Almaniya münasibətlərinin ölkəmiz üçün xüsusi önəm daşıdığını diqqətə çatdırıb.

Almaniya Federativ Respublikasının Federal Kansleri Angela Merkelin Azərbaycan Respublikasına səfərini xatırladan Bundestaqın deputatı Nikolas Löbel həmin səfərin iki ölkə arasındakı əlaqələrin inkişafı baxımından faydalı olduğunu bildirib.

Almaniya-Azərbaycan münasibətlərindən bəhs edən Nikolas Löbel deyib ki, Almaniya iqtisadi, enerji təhlükəsizliyi və digər sahələrdə Azərbaycan ilə əməkdaşlıqda maraqlıdır. Biz siyasi, iqtisadi sahələrdə əlaqələrin genişləndirilməsində, eyni zamanda, cəmiyyətlər arasında münasibətlərin qurulmasında da maraqlıyıq.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

Görüşdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Asim Mollazadə və Tahir Mirkişili iştirak ediblər.

# "Reket" jurnalistika ilə məşğul olanlara qarşı ciddi tədbirlər həyata keçirilir

## *Ekspertlərin qənaətincə, jurnalist adından sui-istifadə edərək "reketlik"lə məşğul olanlar hüquqi məsuliyyətə cəlb edilməlidirlər*



***Aynur Camalqızı:*** *İkram Rəhimovun həbsi jurnalist adından sui-istifadə edərək "reketlik"lə məşğul olan digər şəxslərə dərs olacaq*



***Azər Həsrət:*** *Belə şəxslərin hər birinə qarşı hüquq müstəvisində sərt tədbirlər görülməlidir*



***Rəşad Məcid:*** *Maddi gəlir əldə etmək üçün insanların həyatına müdaxilə edilməsi, onların şantaj olunması konkret olaraq cinayət əməlidir*

Azərbaycanda hüquqi dövlət quruculuğu kontekstində şəffaflıq və bərabərlik həm də söz, fikir azadlığı məsələlərində təmin olunub. Ölkəmizdə söz, fikir və özünüifadə azadlığı konstitusion əsasda təsbit edilib və hər bir media təsisatı özünün hüquq və azadlıqlarından sərbəst surətdə istifadə edə bilir. Məhz bu amil Azərbaycan mətbuatının inkişafına mühüm töhfələr verməklə yanaşı, medianın fəaliyyətində əsaslı keyfiyyət dəyişikliklərinin meydana gəlməsini şərtləndirib. Ölkəmizdə KİV-in inkişafı üçün müvafiq qanun və qərarların qəbul olunması, strateji xarakterli addımların atılması bu sahədə hüquqi əsasları daha da gücləndirib, media təsisatının funksionallığının artmasına səbəb olub. Bir sözlə, həyata keçirilən islahat xarakterli məqsədyönlü tədbirlər Azərbaycan milli mətbuatının səmərəli fəaliyyətinə real əlverişli şərait yaradıb. Amma bütün bunlara baxmayaraq, bir sıra şəxslər yaradılan bu münbit şəraitdən sui-istifadə etməyə çalışır, mediadan öz çirkin niyyətlərini həyata keçirmək üçün yararlanmağa cəhd edirlər. Bu cür qanun pozuntuları isə hüquq-mühafizə orqanları tərəfindən araşdırılır və müvafiq tədbirlər görülür. Yeri gəlmişkən, Azərbaycan Respublikasının vətəndaşı Rəhimov İkram Rafiq oğlunun tabeçiliyində olan şəxslərlə birlikdə "Realliq.info" və digər "reket" informasiya saytları yaradıb, həmin internet qəzetlərin jurnalistləri adı ilə ayrı-ayrı vətəndaşların barəsində rüsvayedici və böhtan xarakterli məlumatların mətbu orqanlarında müntəzəm yayıb dayandırılması müqabilində pul tələb etməsi və alması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplaması barədə daxil olmuş çoxsaylı şikayətlər Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) araşdırılıb. DTX-nin ictimai əlaqələr şöbəsinin yaydığı məlumata görə, məhkəmə qərarı əsasında aparılmış əməliyyat tədbirləri ilə İkram Rəhimovun əlaqədə olduğu şəxslərlə birgə törətdiyi həmin silsilə cinayət əməlləri müfəssəl qeydə alınıb. İkram Rəhimov 2018-ci il oktyabrın 26-da Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.1-ci və 182.2.2-ci maddələri üzrə (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrarən hədə-qorxu ilə tələb etmə) cinayət əməllərində şübhəli şəxs kimi saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib.

Məsələyə münasibət bildirən "Teleqraf" MMC-nin direktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Aynur Camalqızı diqqətə çatdırıb ki, jurnalist adından sui-istifadə edərək "reketlik"lə məşğul olmaq yolverilməzdir. Uzun illərdir ki, Mətbuat Şurasının "reket" jurnalistlərlə mübarizə apardığını diqqətə çatdıran A.Camalqızı əlavə edib: **"Peşəkar jurnalistlər olaraq onları sıradan çıxarmaq üçün var gücümüzlə çalışırıq. Lakin bunu bacarmaq çətindir. Mətbuat Şurasının əlində inzibati resurslar yoxdur. "Reket" jurnalistlərə ən ağır cəzanı onların saytlarını, qəzetlərini yalnız "qara siyahı"ya salmaqla verə bilirik. Amma bu da çıxış yolu deyil. Çünki onlar bir yox, onlarla sayt, qəzet adı qeydiyyatdan keçiriblər. Onların birini "qara siyahı"ya salanda və yaxud blokladanda digərləri ilə öz mənfi, zərərli fəaliyyətlərini davam etdirirlər. Bununla da onların qarşısını almaq mümkün olmur".**

Mətbuat Şurasının İdarə Heyətinin üzvü bildirib ki, "realliq.info" saytının baş redaktoru İ.Rəhimovun arzuolunmaz fəaliyyəti ortadadır: **"Bu şəxs sosial media vasitəsilə, internet resursları ilə bəzi şəxslər haqqında saxta məlumatlar yayırdı. İ.Rəhimovun DTX tərəfindən saxlanılması təqdirəlayiq haldır. İnanıram ki, Azərbaycan məhkəmələri onun haqqında ədalətli qərar çıxaracaq. Beləliklə də, İ.Rəhimovun həbsi jurnalist adından sui-istifadə edərək "reketlik"lə məşğul olan digər şəxslərə dərs olacaq. Çünki onlar çox hallarda özlərini güclü hesab edərək fəaliyyətlərinin qarşısının alına bilməyəcəyini düşünürlər. Ona görə də onların saxta məlumatlarının ardı kəsilmir".**

A.Camalqızı vurğulayıb ki, "reketlik" cinayətdir və digər cinayət əməlləri kimi hüquqi qiymətini almalıdır: **"Bu işlərlə məşğul olan şəxslər cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Çünki onların işi jurnalistika fəaliyyəti deyil, sırf cinayət tərkiblidir. Bu mənada, həmin şəxslər məsuliyyətə cəlb olunmalı, onlar haqqında ədalətli hökm çıxarılmalıdır".**

**"Jurnalist adından sui-istifadə edərək "reketlik"lə məşğul olanlara qarşı ictimai qınaq da gücləndirilməlidir. Bu məsələlərlə bağlı maarifləndirici tədbirlər həyata keçirilməli, bu istiqamətdə yazıların sayı artırılmalıdır. Bununla da insanlar biləcəklər ki, bu adamlar həqiqi jurnalist deyillər. Onlar, sadəcə, cinayətlə məşğuldurlar. Hər bir jurnalist istər sosial şəbəkələrdə, istərsə də çalışdığı media orqanlarında onlara qarşı çıxmalıdır"**, - deyə A.Camalqızı vurğulayıb.

"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə qeyd edib ki, əvvəllər Mətbuat Şurasına qəzetlərlə bağlı şikayətlər daxil olurdu, sonradan isə bu sıraya yeni media orqanları, internet saytları da qoşuldu: **"Araşdırmaların nəticələri göstərir ki, həmin media orqanlarında yer alan yazılar qərəzli xarakter daşıyır, jurnalist adından istifadə edərək "reketlik"lə məşğul olanlar müxtəlif şəxslərlə bağlı yalan və böhtan xarakterli məlumatlar yaymaqla, şantaj vasitəsi ilə qazanc əldə etməyə çalışırlar. Bariz görünür ki, bu şəxslərin peşəkar jurnalistikanın prinsiplərindən, Mətbuat Şurasının qəbul etdiyi peşə davranışı kodeksindən xəbərləri yoxdur. Mətbuat Şurası bu tipli "media orqanları"na konkret ictimai münasibət formalaşdırır, onlara qarşı cəmiyyətdə kəskin münasibətin formalaşmasına çalışır. Onların fəaliyyətində cinayət elementləri olduqda isə aidiyyəti dövlət strukturları tərəfindən müvafiq tədbirlər görülür. Maddi gəlir əldə etmək üçün insanların həyatına müdaxilə edilməsi, onların şantaj olunması konkret olaraq cinayət əməlidir. Ona görə də müvafiq strukturlar tərəfindən adekvat tədbirlərin görülməsi tamamilə qanunauyğundur".**

Media eksperti Azər Həsrət də deyib ki, "reket jurnalistikası" ilə effektiv mübarizə aparmaq vacibdir. "Reket jurnalistlər"in jurnalist adından və peşəsindən sui-istifadə etdiklərini deyən A.Həsrət əlavə edib ki, İkram Rəhimov və onun kimi şəxslər jurnalist adından istifadə etməklə müxtəlif şəxsləri şantaj etmək, qaralamaq yolu ilə özlərinə "biznes" qurmağa çalışırlar: **"Yəni bu adamlar konkret olaraq jurnalistikadan sui-istifadə edirlər ki, bu da yolverilməzdir. Bu cür halların qarşısının alınması üçün effektiv addımlar davam etdirilməlidir. Hesab edirəm ki, bu məqsədlə Azərbaycan qanunvericiliyinə müəyyən əlavə və dəyişikliklər edilməli, jurnalistikadan sui-istifadə edən şəxslərin bu əməli bir və ya bir neçə dəfə törətdiyi qeydə alınarsa, onlar bu sahədən kənarlaşdırılmalıdırlar. Belə olan halda, bu problemi tamamilə həll etmək olar".**

Azər Həsrətin sözlərinə görə, İ.Rəhimovun DTX tərəfindən saxlanması "reketlik" fəaliyyəti ilə məşğul olan, medianın adından sui-istifadə edən başqa insanlara dərs olmalıdır. **"Ümumiyyətlə, belə şəxslərin hər birinə qarşı hüquq müstəvisində sərt tədbirlər görülməlidir"**, - deyə o vurğulayıb.

**Nurlan QƏLƏNDƏRLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqamətində həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

# Azərbaycanın bütün bölgələrində yüksək səviyyəli yeni yollar salınır

*2018-ci ilin sonunadək respublika miqyasında 2 min kilometr uzunluğunda yeni avtomobil yollarının tikintisi və minimum 600 kəndin müasir yollarla təmin edilməsi nəzərdə tutulub*






Azərbaycanda geniş vüsət alan və ölkəmizin müasir simasını səciyyələndirən yüksək səviyyəli infrastruktur quruculuğu prosesini həmçinin bütün respublika üzrə avtomobil yollarının, yolayrıcıların, körpülərin inşasının və yenidən qurulmasının timsalında aydın şəkildə izləmək mümkündür. 2004-cü ildən bəri respublikamızda 15 min kilometr yol çəkilib, 443 körpü tikilib.

Ölkəmizdə yeni yolların çəkilməsi və mövcud yolların yenidən qurulması ilə bağlı işlərin coğrafiyası getdikcə genişlənir. Təkcə 2017-ci ildə ölkə miqyasında şərti "40 yol" adlanan, əslində isə regionlarda daha çox sayda kəndi əhatə edən layihə böyük müvəffəqiyyətlə tamamlanıb. 2018-ci ildə qarşıya qoyulan hədəflər isə daha böyükdür. Belə ki, cari ilin sonunadək respublika miqyasında 2 min kilometr uzunluğunda yeni avtomobil yollarının tikintisi və minimum 600 kəndin müasir standartlar səviyyəsində qurulan yollarla təmin edilməsi nəzərdə tutulub. Regionlarda irimiqyaslı layihələrin uğurla tamamlanması onu deməyə əsas verir ki, 2018-ci ildə də ölkə üzrə yol infrastrukturunun yenilənməsi ilə bağlı qarşıya qoyulan vəzifələrin icrası uğurla təmin ediləcək.

## QAX-QIPÇAQ-AĞYAZI AVTOMOBİL YOLU 4 MİN NƏFƏR ƏHALİNİN RAHAT GEDİŞ-GƏLİŞİNİ TƏMİN EDƏCƏK

Cari il oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev regionlara səfəri çərçivəsində Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər haqqında dövlətimizin başçısına məlumat verib.

Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən həyata keçirilib. Yol 13 məntəqəni əhatə etməklə burada yaşayan 4 min nəfər əhalinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətində mühüm rol oynayacaq.

Açılış mərasimində bildirildiyi kimi, Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun uzunluğu 44,5 kilometr, hərəkət hissəsinin eni 6-7 metrdir. Yol uzun müddət əsaslı təmir edilmədən istismar olunduğundan yol geyimi və yolun əsası, həmçinin torpaq yatağı sel sularının təsirindən yuyularaq deformasiyaya uğramış, hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Müvafiq olaraq, III və IV texniki dərəcələrə aid olan ikizolaqlı hərəkət hissəli yolun inşası yüksək keyfiyyətlə, bütün texniki tələblərə və ardıcıllığa uyğun aparılıb. Layihə çərçivəsində zəruri olan yerlərdə suötürücü borular quraşdırılıb, siqnal dirəkləri, yol nişanları və göstərici lövhələr qoyulub, yol-cizgi xətləri çəkilib. İnşaat işləri zamanı Qax şəhərinin girişində yolun dağ yamacı hissəsində çay daşından 2250 metr uzunluğunda istinad divarı tikilib. Həmçinin ümumi uzunluğu 69 metr olan iki körpü təmir edilib.

Avtomobil yolunun inşası 13 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Bu yolun müasir səviyyədə yenidən qurulması həm yük və sərnişin daşımasını xeyli yaxşılaşdıracaq, yetişdirilən məhsulların rahat şəkildə bazarlara daşınmasına imkan yaradacaq, həm də bölgənin turizm potensialının möhkəmləndirilməsi işinə də xidmət göstərəcək. Eyni zamanda, yolboyu yaşayan əhalinin sosial rifahının yüksəlməsinə imkan verəcək. Bu yolun ölkə əhəmiyyətli Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolundan ayrılması isə onun sosial və iqtisadi əhəmiyyətini daha da artırır.

Tədbirdə dövlətimizin başçısına Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 124-164 kilometrlik hissəsini əhatə edən Zaqatala-Balakən-Mazımçay hissəsinin əsaslı təmir olunması barədə də məlumat verilib. Bu yolda əsaslı təmir işləri Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən yüksək keyfiyyətlə aparılıb. Əsaslı təmir olunan yolun uzunluğu 40 kilometr, eni isə 13 metrdir. Buraya hər iki istiqamət üzrə iki metr enində çiyinlər və genişləndirildikdən sonra eni 9 metrə çatdırılan hərəkət hissəsi daxildir. Tikinti layihəsinə əsasən yolboyu mövcud olan beş avtomobil körpüsünün əsaslı şəkildə təmiri də aparılıb. Suların ötürülməsi üçün yolun altında müxtəlif ölçülü 68 ədəd dəmir-beton borular quraşdırılıb. Bütün işlər texnoloji ardıcıllığa riayət edilərək görülüb.

Əsaslı təmir edilən Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun tərkib hissəsinə aid olan Zaqatala-Balakən-Mazımçay hissəsi 100 mindən çox əhalinin yaşadığı iki rayonun inzibati ərazisindən keçməklə 16 yaşayış məntəqəsini birləşdirir. Təmir işləri yolboyu yaşayan əhali ilə yanaşı, yoldan istifadə edən bütün vətəndaşların gediş-gəlişini rahatlaşdıracaq, Gürcüstan istiqamətində, həmçinin əks istiqamətdə yük və sərnişin daşımasını xeyli asanlaşdırmaqla kənd təsərrüfatının və turizmin inkişafına mühüm töhfə verəcək.

Prezident İlham Əliyevə Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin yenidən qurulması barədə də məlumat verilib. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində inşa olunan respublika əhəmiyyətli Qorağan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsini əhatə edən yol başlanğıcını Qorağan-Qax-Zaqatala avtomobil yolunun 14-cü kilometrliyindən - Qax şəhərinin girişindən götürür. Yol Yevlax-Zaqatala-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 125-ci kilometrinədək uzanır. Ümumi uzunluğu 29,8 kilometr olan yol üçüncü texniki dərəcəyə uyğun yenidən qurulub. İki hərəkət zolaqlı yolun ümumi eni 12 metrdir.

Layihə çərçivəsində 52 ədəd suötürücü boru tikilib, beton kanal və drenaj işləri görülüb, rabitə və su xətlərinin yeri dəyişdirilib, 4 yerdə heyvanların keçidi inşa olunub. Tikinti işləri zamanı Qum çayı üzərində uzunluğu 23,2 metr və Süzgənc çay üzərində uzunluğu 46 metr olan dəmir-beton körpülər tikilib. Dərnə, Atagar, Muxax və Lekit çayları üzərində yerləşən mövcud körpülərdə isə əsaslı bərpa və bərkitmə işləri aparılıb.

Qax-Zaqatala avtomobil yolu Böyük Qafqaz sıra dağlarının cənub ətəyi ilə uzanır və ölkənin ən böyük turizm marşrutlarından olan yolun bir hissəsidir. Yol xüsusilə Qax-Zaqatala rayonlarının 37 min nəfərdən çox əhalisi olan 22 yaşayış məntəqəsində nəqliyyat xidmətini yaxşılaşdırmağa imkan verəcək. Eləcə də Qax və Zaqatala rayonları arasında hazırda mövcud olan yol məsafəsi xeyli qısalacaq.

## ŞƏKİ-KİŞ AVTOMOBİL YOLU YENİDƏNQURMADAN SONRA SAKİNLƏRİN İSTİFADƏSİNƏ VERİLİB

Şəki-Kiş avtomobil yolu oktyabrın 29-da yenidənqurmadan sonra sakinlərin istifadəsinə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avtomobil yolunun açılışında iştirak ediblər.

Yolun uzunluğu 7,2 kilometrdir. Şəki-Kiş avtomobil yolunun hərəkət hissəsi sıradan çıxmışdı. Bu isə avtonəqliyyat vasitələrinin hərəkətində problemlər yaradırdı. On yeddi min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Şəki-Kiş avtomobil yolunun yenidən qurulması Azərbaycan Prezidentinin Sərəncamına əsasən həyata keçirilib. Görülən işlər nəticəsində yol iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Layihəyə uyğun olaraq 7 metr enində yol əsası və 2 metr enində çiyinlər də daxil olmaqla yeni salınan yol yatağının eni 12 metrdir. Yolboyunca müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər çəkilib, avtobus dayanacaqları tikilib.

Azərbaycan Prezidentinin Sərəncamına uyğun olaraq, Kiş çayı üzərində körpünün bərpası işləri də aparılıb. Yeni inşa edilən körpünün uzunluğu 88,2 metr, hərəkət hissəsinin eni 8 metrdir. Körpünün hər iki tərəfində eni 1,5 metr olan piyada səkiləri də yaradılıb. Dayaqsız biraşırımlı körpünün çay yatağından hündürlüyü 7 metrdir. Bu isə gələcəkdə sel sularının körpüyə zərər vurmasının qarşısını alacaq. Çayda sel suları nəzərə alınaraq körpünün təhlükəsizliyini təmin etmək üçün qabaqlayıcı və profilaktik tədbirlər həyata keçirilib. Layihə çərçivəsində çayda su axınının tənzimlənməsi və yaşayış məntəqələrini sel sularından qorumaq üçün sağ sahildə mövcud qazma-doldurma svay əsaslı monolit beton istinad divarlarının 32 metr hissəsinin hündürlüyü artırılıb, sol sahildə isə 45 metr uzunluğunda yeni su tənzimləyici qurğu inşa olunub.

Xatırladaq ki, 2016-cı ilin iyulunda yağan leysan nəticəsində sel suları həmin körpünü uçurmuş, Kiş kəndinin rayon mərkəzi ilə avtonəqliyyat əlaqəsi kəsilmişdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən əraziyə cəlb edilən ağır texnika və canlı qüvvə hesabına qısa müddət ərzində Kiş çayı üzərində müvəqqəti yol salınaraq gediş-gəliş bərpa olunmuşdu. Təbii fəlakətin yol infrastrukturuna vurduğu ciddi ziyanın aradan qaldırılması və 7 min nəfər əhalinin yaşadığı Kiş kəndini ətraf yaşayış məntəqələri ilə birləşdirən yeganə körpünün bərpası üçün Prezident İlham Əliyev tərəfindən 2016-cı il avqustun 16-da müvafiq Sərəncam imzalanmışdı.

Avtomobil yolunun inşası iki yaşayış məntəqəsi arasında yük və sərnişin daşınmasının yaxşılaşdırılmasına imkan verəcək, həmçinin yerli və xarici turistlərin Kiş kəndinə və "Marxal" istirahət mərkəzinə gediş-gəlişində mühüm rol oynayacaq.

## İMİŞLİ-OTUZİKİ-QARAQAŞLI AVTOMOBİL YOLU 4-CÜ TEXNİKİ DƏRƏCƏYƏ UYĞUN YENİDƏN QURULUB

Uzunluğu 23 kilometr olan İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolu 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Regionlara səfəri çərçivəsində Prezident İlham Əliyevin də qatıldığı açılış mərasimində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

(davamı növbəti sayımızda)

**Mübariz ABDULLAYEV**

# "Bakcell" UAFA ilə birlikdə "İncəsənət vasitəsilə ünsiyyət" layihəsini davam etdirir

Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti özünün "Bakcell" Stars" Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə növbəti "İncəsənət vasitəsilə ünsiyyət" layihəsinə başlayır.

2010-cu ildən başlayaraq "Bakcell" şirkətinin dəstəyi ilə davamlı şəkildə həyata keçirilən bu layihə xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, asudə vaxtlarının səmərəli təşkili və cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə yönəlib. "Bakcell" şirkətinin maliyyə dəstəyi sayəsində bu layihə üzrə bütün fəaliyyətlər maliyyələşdirilərək daha çox uşağa dəstək olmağa imkan yaradacaq.

**"Bakcell" şirkəti olaraq cəmiyyətimizin tam hüquqlu üzvləri olan bu uşaqların öyrənməsi, yeni bacarıqlar əldə etməsi və hətta yaradıcılıqla məşğul olmasına imkan yaratmaq üçün əlimizdən gələni edirik. İnanırıq ki, bu uşaqlar həyatda öz yerlərini tapacaq və cəmiyyətin vacib bir hissəsinə çevriləcəklər. Əminəm ki, bu il həyata keçiriləcək bu layihə nəticəsində biz daha çox uşağı sevindirməyə nail olacağıq",** - deyə "Bakcell" şirkətinin İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiya departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.



"İncəsənət vasitəsilə ünsiyyət" layihəsinin yeni mərhələsi "UAFA"nın Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərindəki xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yeni imkanlar təmin etmək məqsədi daşıyır. Layihə zamanı yüzə yaxın uşaq öz maraq və seçimləri əsasında yeni bacarıqlara sahib olmaqla yanaşı, istedadını müxtəlif tədbirlərdə nümayiş etdirə biləcəklər.

"Bakcell" şirkətinin UAFA təşkilatı ilə sıx əməkdaşlığı 2010-cu ildən başlayıb və həmin vaxtdan bu günə qədər olan müddət ərzində "UAFA"nın Gəncə, Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərində təşkil edilmiş dram, rəqs, rəsm və yaradıcılıq dərnəklərindən 1000 nəfərdən artıq uşaq bəhrələnib. Həmin dərnəklərdə iştirak edən uşaqlar müxtəlif tədbirlərə dəvət olunub öz bacarıqlarını böyük həvəslə nümayiş etdirməklə özlərinə və onları alqışla qarşılayan tamaşaçılara böyük sevinc hissi bəxş edirlər. Layihə çərçivəsində təşkil olunan dərnəklər cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqlara və əlilliyə qarşı münasibəti dəyişir və bu uşaqların cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə kömək edir.

# Bakcell şirkətinin dəstəyi ilə Bakıda M.A.P. Beynəlxalq Teatr Festivalı start götürür

Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi Bakcell şirkətinin dəstəyi ilə YARAT Müasir İncəsənət Məkanının təşkil etdiyi ikinci M.A.P. Beynəlxalq Teatr Festivalı 6-11 noyabr tarixlərində Bakı şəhərində keçiriləcək.




Ünsiyyət, təhsil, bilik və təcrübə mübadiləsi platforması olan M.A.P. festivalının adı musiqi, incəsənət və performans terminlərinin abreviaturasıdır. Tamaşaçı auditoriyalarına müasir teatr formalarının geniş diapazonunu təqdim etmək məqsədilə bu festival özündə müxtəlif teatr nümunələrini birləşdirəcək. Bu ilki festival çərçivəsində Danimarka, Estoniya, Almaniya, İran, İtaliya, Yaponiya, İsveçrə, Rusiya və Birləşmiş Krallıqdan olan nüfuzlu teatr qurumlarının 16 tamaşası təqdim ediləcək. Festivalın ilk günündə Bakı Konqres Mərkəzində keçiriləcək rəsmi açılış mərasimindən sonra həmin məkana gələn teatr həvəskarları üçün İtaliyanın "NoQraviti" teatrının kollektivi tərəfindən hazırlanmış "Ariya" adlı multidisiplinar tamaşa nümayiş olunacaq. Parlaq rəqslər, ifalar və kostyumların yer aldığı bu tamaşaya Monteverdi, Vivaldi və Perqolezinin musiqi əsərləri daxildir. Rəqqaslar, musiqiçilər və müğənnilərin hamısı bir neçə artistik janrı birləşdirməklə, bu tamaşada bərabər səviyyədə mərkəzi rol oynayırlar.

M.A.P. festivalı Azərbaycanda incəsənətin inkişafına, habelə, bütün dünyada Azərbaycan incəsənətinin tanınmasına əhəmiyyətli töhfə verir. Bu, musiqi, incəsənət və performans ilə məşğul olan insanların öz əsərlərini beynəlxalq səviyyəli peşəkarlarla birgə nümayiş etdirməsi üçün unikal bir imkandır.

Bakcell şirkəti, artıq ikinci ildir ki, M.A.P festivalının baş sponsoru qismində çıxış edir. Milli telekommunikasiya operatoru olan Bakcell Azərbaycanda musiqi və incəsənətin inkişafına töhfə verən layihələri dəstəkləyir.

# "Nar" abunəçilərinə Göyçayda keçiriləcək Nar bayramında iştirak şansı verir

Azərbaycanın milli-mədəni irsinə bağlılıq nümayiş etdirən və milli dəyərləri daim diqqət mərkəzində saxlayan "Nar" abunəçiləri üçün növbəti maraqlı müsabiqə elan edir. Mobil operator abunəçilərinə noyabrın 3-4-də Göyçayda təşkil ediləcək ənənəvi Nar bayramına getmək şansı verir. Bu məqsədlə, "Nar" sosial mediada müsabiqə elan edib. Müsabiqə oktyabrın 30-u saat 16:00-da başlayıb, noyabrın 2-si saat 12:00-a qədər davam edəcək. Nəticələr noyabrın 2-də elan ediləcək.

Suallar nar və Göyçay rayonu haqqında olacaq. Bütün suallara düzgün cavab verən ilk 20 nəfər "Nar" əməkdaşları ilə birlikdə Nar bayramında iştirak etmək üçün Goyçaya səfər edəcək. Müsabiqədə bu keçid vasitəsilə iştirak etmək olar: https://www.nar.az/promo/goychay-bayram.html

"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# "Azercell"in sponsorluğu ilə keçirilən "Hackathon-AzIn 2018"in qalibləri bəlli olub



İnformasiya texnologiyaları sahəsində xüsusi istedada malik, öz innovativ fikirlərini koda çevirməyi bacaran gənclər Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdində fəaliyyət göstərən "AzInTelecom" MMC-nin təşkil etdiyi "Hackathon-AzIn 2018" müsabiqəsində öz bacarıqlarını nümayiş etdiriblər. Azərbaycanda ilk dəfə keçirilən beynəlxalq "İnnovasiyalar həftəsi" çərçivəsində "AzInTelecom" MMC-nin təşkilatçılığı, Yüksək Texnologiyalar Parkının dəstəyi və "Azercell Telekom" MMC-nin sponsorluğu ilə baş tutan layihənin qalibləri müəyyən olub. "Şəkil tanıma texnologiyası üzrə veb tətbiqetmənin hazırlanması" mövzusunu əhatə edən müsabiqədə münsiflər heyətinin qərarı ilə "Dostlar", "Express" və "Ml learning" komandaları qələbə qazanıb.

Birinci yerin sahibi "Dostlar" komandasına 5000 AZN, ikinci yerin sahibi "Express" komandasına 3000 AZN, üçüncü yerin sahibi "Ml learning" komandasına isə 1000 AZN məbləğində pul mükafatı təqdim olunub. Eyni zamanda, qalib komandalar müsabiqənin Qızıl sponsoru olan "Azercell" şirkəti tərəfindən də dəyərli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, üç mərhələdən ibarət olan "Hackathon" müsabiqəsinin birinci mərhələsində iştirakçılara mövzu ilə bağlı müvafiq tapşırıq verilib, ikinci mərhələdə iştirakçılar tapşırığın proqramlaşdırma və təqdimatı üzərində işləyiblər. Təqdim olunan həllərin qiymətləndirilməsində məntiq, dizayn, funksionallıq və innovativlik kimi kriteriyalar nəzərə alınıb.

"Hackathon" ortaq fikrə sahib insanların komanda şəklində çalışaraq öz innovativ fikirlərini koda çevirməsidir. Bu müsabiqə zamanı iştirakçılar 24-48 saat müddətində verilən tapşırıq üzrə yeni həll müəyyən etmək və onu təqdim etmək üçün bir araya gəlirlər. "Azercell Telekom" hər zaman olduğu kimi bundan sonra da informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələri və yaranmaqda olan şirkətləri - "startap"ları dəstəkləməyə davam edəcək.

## Allah rəhmət eləsin!

Azərbaycan Dövlət İqtisad Universitetinin Elektron İdarəetmə Mərkəzinin kollektivi Mərkəzin direktoru Zöhrə Həsənovaya qardaşı

**Telman Həsənovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Aqşin ŞAHİNOĞLU